Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

**22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü və Azərbaycan ədliyyəsinin yaranmasının 99-cu ildönümüdür!**



№ 11 noyabr 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



*Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 11 NOYABR 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

**(012) 539-76-75**



**Qaynar xətt**

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
"Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
"Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

Azərbaycan-İran-Rusiya əməkdaşlığı regionda sabitliyə xidmət edir....5
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya işgüzar səfəri ....9

**AZƏRBAYCAN ƏDLİYYƏSİ - 99**

Ədliyyə işçilərinin peşə bayramı günü geniş qeyd olunub ....14
Ədliyyə orqanlarına qulluğa qəbul olunan gənclərlə görüş ....16
Fikrət Məmmədov. Azərbaycan ədliyyəsi yeni inkişaf mərhələsini yaşayır ....18
Azərbaycanın məhkəmə sistemindəki nailiyyətləri Avropa dövlətlərinə parlaq nümunədir *(Ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərovun müsahibəsi)* ....27
Azərbaycan ədliyyəsində islahatların müasir mərhələsi *(Ədliyyə nazirinin müavini Məhərrəm Əliyevin müsahibəsi)* ....33
Azərbaycan ədliyyəsinin 99-cu ildönümü bölgələrdə də qeyd olunub ..37
Ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş tədbirlər ....41

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Dünya Bankı ilə birgə ədliyyə sahəsində layihələr uğurla həyata keçirilir ....42
Avropa İttifaqının ölkəmizdəki səfiri ilə görüş ....43
Məhkəmə islahatları beynəlxalq aləmdə təqdir olunur ....44

**QƏBULLAR, İCLASLAR**

Məhkəmə-Hüquq Şurasının iclasında ....45
Ədliyyə naziri Saatlı rayonunda vətəndaşları qəbul edib ....46
İctimai Komitənin yeni tərkibdə ilk iclası keçirilib....47
Ədliyyə Nazirliyinin Apellyasiya Şurasının növbəti iclası keçirilib ....48

**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Bir sıra rayonlarda vakant olan notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı keçirilib ....49
Ədliyyə Nazirliyinin nümayəndə heyəti III Beynəlxalq Penitensiar Forumda iştirak edib ....49
Ədliyyə Akademiyasında icbari təlim kursuna başlanılıb ....50
Ədliyyə işçilərinin ixtisasının artırılması diqqət mərkəzindədir ....51
Naxçıvan Dövlət Universitetinin tələbələri muxtar respublikanın Ədliyyə Nazirliyində olublar ....51
Regional ədliyyə idarələri tərəfindən hüquqi maarifləndirmə tədbirləri davam etdirilir ....52

**YENİ QANUNLAR, FƏRMANLAR...**

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....53











## YENİ QANUNLAR, FƏRMANLAR...

”Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................................................54
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....................55
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....................56
“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu....57
“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ..............57
“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ...........................................................................................60
“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ...........................................................................................61
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....................61
“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ...........................................................................................62



# Azərbaycan-İran-Rusiya əməkdaşlığı regionda sabitliyə xidmət edir

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrana işgüzar səfəri

**Noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.**

Əvvəlcə dövlət başçıları birgə foto çəkdiriblər. Sonra İran, Azərbaycan və Rusiya prezidentləri üçtərəfli Zirvə görüşündə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında ötən ilin avqustunda Bakıda keçirilmiş dövlət başçılarının ilk Zirvə görüşünün üçtərəfli əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini vurğulayıb. Bildirib ki, xalqlarımızın tarixi əlaqələri üç ölkə arasında tərəfdaşlığın möhkəm təməlini təşkil edir. Ölkəmiz İran və Rusiya ilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq həyata keçirir.

Dünyada beynəlxalq hüququn normalarının bir çox hallarda işləmədiyini və kobudcasına pozulduğunu deyən dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun ağır nəticələrinə toxunaraq bu münaqişə ilə bağlı nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrin hələ də icrasız qaldığını, Ermənistanın işğalçı siyasətini davam etdirdiyini, erməni işğalına tezliklə son qoyulmasının, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini vurğulayıb.

Üçtərəfli formatın iqtisadi əməkdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkan yaratdığını söyləyən Prezident İlham Əliyev Azərbaycanın Rusiya və İran ilə ticarət



Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli Zirvə görüşü

dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını qeyd edib, ölkələrimizin neft-qaz, elektroenergetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirib, İran, Rusiya, Azərbaycan üçtərəfli əməkdaşlığının regionda təhlükəsizliyin, sabitliyin, iqtisadi inkişafın təmin olunmasına xidmət etdiyini vurğulayıb.

Sonda dövlət başçıları Zirvə görüşünün Birgə Bəyannaməsini imzalayıblar. Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

İran Prezidenti Həsən Ruhani mətbuata açıqlamasında bildirib ki, müzakirə olunan əsas məsələlərdən biri Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşdırılması prosesidir. Onun sözlərinə görə, hər üç dövlət iqtisadi maraqlarını əks etdirən bu beynəlxalq nəqliyyat dəhlizinin tamamlanması üçün səylərini artıracaq. Həmçinin qeyd edib ki, dəhlizin mühüm hissəsini təşkil edən Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xəttinin çəkilməsi İran, Azərbaycan və Rusiyanın dəmir yolu sistemlərini birləşdirəcək. Qərara alınıb ki, dəhlizin formalaşması istiqamətində aparılan işlər daha da sürətləndirilsin. Bu




Dövlət başçılarının mətbuata bəyanatları

dəhliz həm iqtisadi baxımdan səmərəlidir, həm də xalqların daha da yaxınlaşması üçün zəmin yaradacaq.

H.Ruhani Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin hər üç dövlət üçün strateji xarakter daşıdığını vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatında ilk Zirvə görüşündən ötən dövr ərzində çox önəmli hadisələrin baş verdiyini, ticarət dövriyyəsinin artdığını, ölkəmizin öz dəmir yolu infrastrukturunu təkmilləşdirdiyini bildirib, "Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycan ərazisində olan hissəsinin tam istismara hazır olduğunu qeyd edib, neft-qaz sahəsində əməkdaşlıq edən üç ölkənin dünya enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verdiyini söyləyib. Bildirib ki, dostluq, qarşılıqlı hörmət əsasında qurulan əməkdaşlığımız xalqlarımız, ölkələrimiz üçün çox önəmlidir və region üçün də çox böyük əhəmiyyət daşıyır.

Rusiya Prezidenti Vladimir Putin mətbuat konfransında çıxışında üçtərəfli görüşdə təhlükəsizlik, cinayətkarlıq və beynəlxalq terrorçuluqla birgə mübarizə məsələlərinin müzakirə olunduğunu, iqtisadi əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, Rusiya, İran və Azərbaycan dünyanın iri neft-qaz istehsalçılarıdır. Lakin bu o demək deyil ki, biz rəqabət aparmalıyıq. Bu o deməkdir ki, biz səylərimizi koordinasiya edib əməkdaşlıq etməliyik.

Rusiya Prezidenti həmçinin söyləyib ki, hər üç ölkə iri neft-qaz istehsalçısı olsa da xammalın daxili logistika baxımından bir-birinə ötürülməsinə maraq var. Məsələn, Rusiya Azərbaycanın kəmərlər sistemi ilə İranın şimalına qaz nəql etməyə hazır olduğunu bildirib. Bu da bizim tərəfdaşlarımız üçün iqtisadi baxımdan məqsədəuyğun ola bilər.

Dünya bazarında satılan neftin qiymətinə toxunan V. Putin nəzərə çatdırıb ki, neft hasilatının məhdudlaşdırılmasına dair OPEC ilə qeyri-OPEC ölkələrinin razılaşması artıq bəhrəsini verir.

Tədbirdən sonra rəsmi ziyafət verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi ziyafətdə iştirak edib.

Səfər zamanı Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub.


Azərbaycan və İran prezidentlərinin görüşü

Görüşdə Azərbaycan və İran xalqları arasında tarixi, mədəni və dini köklərin mövcudluğunun əlaqələrimizin möhkəmlənməsində rolu qeyd edilib. Son beş ildə dövlət başçıları arasında on görüşün keçirilməsi uğurlu əməkdaşlığımızın səviyyəsinin göstəricisi kimi qiymətləndirilib, siyasi əlaqələrin uğurla inkişaf etdiyi bildirilib.

Həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasəti və münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin vəziyyəti barədə məlumat verib. Hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri və bu istiqamətdə perspektivlər müzakirə olunub, regional məsələlərə toxunulub, terrorizm və ekstremizmə qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, Azərbaycan-Rusiya-İran üçtərəfli əməkdaşlığı böyük potensiala malikdir və bu format çox önəmli sahələrdə əməkdaşlıq üçün yaxşı nəticələr verə bilər.

Görüşdə iqtisadi əməkdaşlıq məsələlərinin müzakirəsində ticarət dövriyyəsinin keçən il 70 faiz, bu ilin 9 ayında isə 33 faiz artması yüksək qiymətləndirilib. Söhbət zamanı qarşılıqlı sərmayə qoyuluşu, energetika, neft-qaz, nəqliyyat sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin uğurla icra olunduğu vurğulanıb.



Azərbaycan və Rusiya prezidentlərinin görüşü

Dövlətimizin başçısı İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Rusiya Prezidenti ölkələrimiz arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıb, ikitərəfli əlaqələrin inkişafı üzrə, ümumiyyətlə, səylərin müsbət nəticələrini, o cümlədən cari ildə əmtəə dövriyyəsinin artdığını qeyd edib. Həmçinin bildirib ki, regional problematika üzrə daim məsləhətləşmələr aparılır.

Prezident İlham Əliyev ölkələrimizin münasibətlərin inkişafına yeni impuls verdiyini, iqtisadi sahədə əmtəə dövriyyəsinin biznes qurumları arasında böyük qarşılıqlı marağın olduğunu göstərdiyini vurğulayıb, bütün istiqamətlərdə - humanitar, iqtisadi, energetika, nəqliyyat, hərbi-texniki sahələrdə əməkdaşlıq etdiyini qeyd edib.



İranın Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüş

Səfər çərçivəsində Prezident İlham Əliyev Tehranda İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşüb.

Görüşdə xalqlarımız arasındakı tarixi, mədəni və dini bağlılığın ölkələrimizi bir-birinə daha da yaxınlaşdırdığı qeyd edilib. Azərbaycan ilə İran arasındakı dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Vurğulanıb ki, iki ölkə arasında əlaqələrin bundan sonra da inkişaf etməsi üçün yaxşı imkanlar var.

Elə həmin gün dövlətimizin başçısı İlham Əliyevin İrana işgüzar səfəri başa çatıb.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya işgüzar səfəri

**Noyabrın 23-24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olub.**

Səfər zamanı dövlətimizin başçısı NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşüb. Alyansın mənzil-qərargahında keçirilən görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. NATO-nun baş katibi ölkəmizin qurumun Kosovo və Əfqanıstandakı sülhməramlı missiyalardakı iştirakını yüksək qiymətləndirib. O, Azərbaycanın Əfqanıstana verdiyi dəstəyə görə minnətdarlığını bildirib. Vurğulayıb ki, Azərbaycanın Əfqanıstana yardımı genişləndirmək planı bu ölkənin iqtisadi inkişafına töhfəsini verə bilər.




NATO-nun baş katibi Yens Stoltenberq ilə görüş



Prezident İlham Əliyev NATO ilə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirərək Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda və bu ölkənin iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak etdiyini vurğulayıb.

Söhbət zamanı Azərbaycanın Ceyrançöl ərazisində NATO-nun minatəmizləmə əməliyyatlarına verdiyi dəstəkdən məmnunluq ifadə olunub. Əfqanıstana daşınan yüklər baxımından Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti qeyd edilib.

Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunan görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat verilib, regional məsələlər müzakirə olunub.

Sonra Prezident İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.

Həmin gün Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclası keçirilib. İclasda əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış edib. Sonra o, sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib.




NATO-nun Şimali Atlantika Şurasının iclası




Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirib. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev NATO-nun, öz növbəsində, Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini söyləyib. Qeyd olunub ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı fəaliyyətini genişləndirir və bu ölkə ilə ikitərəfli səviyyədə iqtisadi və digər sahələrdə əməkdaşlığı həyata keçirir.

Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxunub, əməkdaşlığın uğurla inkişaf etdiyini və onun müxtəlif sahələri əhatə etdiyini bildirib.

Azərbaycanda demokratik inkişaf məsələlərindən danışan Prezident İlham Əliyev ölkəmizdə azad internet, söz, toplaşma və digər azadlıqların təmin edildiyini vurğulayıb, iqtisadi inkişaf məsələləri və bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışıb, respublikamızın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, ölkəmizdə multikulturalizmin, tolerantlığın təmin olunduğunu və bununla bağlı bir sıra mühüm tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Respublikamızda qeyri-neft sektorunun inkişaf etdiyini, Davos Dünya İqtisadi Forumunun ölkəmizin iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq gördüyünü qeyd edən dövlətimizin başçısı təhsil, infrastruktur, nəqliyyat və digər sahələrdə əldə olunan uğurlardan danışıb.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd edib, "Cənub Qaz Dəhlizi" layihəsindən danışıb, TANAP və TAP layihələrinin uğurla icra edildiyini bildirib və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini söyləyib. Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu, Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğulayıb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxunub, Ermənistanın ölkəmizin 20 faiz torpaqlarını, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etdiyini vurğulayıb. Ermənilərin həmin ərazilərdə

törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi icra edilmir və Ermənistan status-kvonu saxlamaq niyyətindədir. Prezident İlham Əliyev NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Sonra bir çox ölkələrin səfirləri çıxış ediblər və Azərbaycanın NATO-nun missiyalarında fəal rolundan danışıb, ölkəmizin Əfqanıstana göstərdiyi yardımı və oradakı missiyada iştirakını yüksək qiymətləndirib, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini qeyd edib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq münaqişənin həllinin zəruriliyini bildiriblər.

Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırıb.

Səfər zamanı Brüsseldə Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun görüşü olub.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığın həyata keçirildiyini və yaxşı nəticələrin əldə olunduğunu qeyd edib, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılacağına ümidvar olduğunu söyləyərək bunun üçün yaxşı potensialın olduğunu vurğulayıb.



Ukrayna Prezidenti Petro Poroşenko ilə görüş

Prezident Petro Poroşenko Ukrayna-Azərbaycan dostluq münasibətlərinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib, Azərbaycanın Ukraynaya ixracının artmasını iqtisadi əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirib.

Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Noyabrın 24-də Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammiti keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.

Dövlət başçısı Sammitin plenar sessiyasında çıxış edib. Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olan Avropa İttifaqı ilə tərəfdaşlıq məsələlərinə toxunan Prezident İlham Əliyev bu mötəbər təşkilatın ölkəmizin əsas ticarət tərəfdaşı olduğunu vurğulayıb, üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizin fəal şəkildə inkişaf etdirildiyini, 9 üzv ölkə ilə strateji tərəfdaşlıq bəyannamələrinin qəbul olunduğunu diqqətə çatdırıb.

Həmçinin bildirib ki, Azərbaycan siyasi və iqtisadi islahatlar siyasətini davam etdirir. Ölkəmiz demokratiyanın inkişafı, insan haqlarının qorunmasına böyük önəm verir və buna ciddi şəkildə sadiqdir. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir və Davos Dünya İqtisadi Forumu iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinə görə ölkəmizi 35-ci yerə layiq görüb.

Dövlətimizin başçısı torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdirilməsini və buna son qoyulmamasını önə çəkərək bildirib ki, separatizmin bütün formaları pislənməlidir və bütün təzahürlərinə vahid yanaşma tətbiq edilməlidir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və bərpa olunmalıdır.

Prezident İlham Əliyev çıxışında Avropa təsisatları ilə enerji sahəsində əməkdaşlığa, həyata keçirilən enerji layihələrinə toxunub, ötən ay açılışı olmuş Azərbaycan, Gürcüstan və Türkiyəni bir-



Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammiti







Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker, Avropa İttifaqına sədrlik edən Estoniyanın baş naziri Yuri Ratas Azərbaycan Prezidenti İlham Əliyevi salamlayıblar

ləşdirən, bununla da Asiya ilə Avropa arasında yeni nəqliyyat əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, iqtisadi inkişaf - bütün bunlar bizim üçün vacib maraq kəsb edən və əsas prioritet olan sahələrdir.

Sonda Azərbaycan Prezidenti qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın uğurla davam edəcəyinə və tezliklə bizim qarşımızda yeni imkanlar açacaq yeni sazişin imzalanacağına əminliyini söyləyib.

Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası başa çatandan sonra birgə foto çəkdirilib.

Qeyd edək ki, Şərq Tərəfdaşlığı Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsdür. Şərq Tərəfdaşlığı Azərbaycan da daxil olmaqla Avropa İttifaqının altı qonşu ölkəsini əhatə edir.

Budəfəki Sammitdə Avropa İttifaqına üzv dövlətlər altı Şərq tərəfdaşı ölkəsinin dövlət və hökumət başçıları ilə gələcək əməkdaşlığı müzakirə ediblər. Onlar, həmçinin Riqa Sammitindən sonrakı nailiyyətləri qiymətləndiriblər. Artıq Şərq Tərəfdaşlığına doğru nəticələrə yönəlmiş yanaşmanı dəstəkləmək üçün Avropa İttifaqı 2020-ci ilədək əldə olunacaq 20 əsas nəticəni müəyyənləşdirib. Əsas mərhələlərin isə məhz Brüssel Sammitində müəyyənləşdirilməsi nəzərdə tutulmuşdu.

# 22 NOYABR - ƏDLİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜ VƏ ƏDLİYYƏ NAZİRLİYİNİN YARADILMASININ 99-CU İLDÖNÜMÜDÜR!

# Ədliyyə işçilərinin peşə bayramı günü geniş qeyd olunub





**Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ədliyyə orqanlarında və məhkəmələrdə böyük ruh yüksəkliyi ilə geniş qeyd olunur.**

Zəngin və keşməkeşli tarixi yol keçən Azərbaycan ədliyyəsinin yaranmasından 99 il ötür. Ulu Öndərin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf edən Ədliyyə Nazirliyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində müasirləşir, yeni-yeni nailiyyətlərə imza atır.

Əlamətdar gün münasibətilə nazirliyin rəhbərliyinin və digər məsul əməkdaşlarının kütləvi informasiya vasitələrində Azərbaycan ədliyyəsinin fəaliyyəti barədə geniş yazıları dərc olunub.

Bayramla əlaqədar ədliyyə orqanlarında və məhkəmələrdə silsilə tədbirlər təşkil edilib, o cümlədən ənənəvi olaraq ədliyyə veteranlarına baş çəkilib, böyük bir qrup gənc qulluğa qəbul olunub, yeni əməkdaşlarla nazirliyin rəhbərliyinin görüşü keçirilib. Eyni zamanda akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təcrübəli həkim heyəti tərəfindən nazirlikdə ədliyyə işçilərinin səyyar oftalmoloji müayinəsi aparılıb, idman turnirləri təş-

















kil edilib, habelə nazirliyin builki fəaliyyətinə həsr olunmuş qısametrajlı sənədli film hazırlanıb.

Peşə bayramlarını iftixar hissi ilə qeyd edən ədliyyə işçiləri və hakimlər noyabrın 22-də Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar. Həmçinin, akademik Zərifə xanım Əliyevanın məzarı önünə gül dəstələri düzülüb, Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi anılıb.

Sonra Ədliyyə Nazirliyində təntənəli mərasim keçirilib. Əvvəlcə əbədiyaşar liderimizin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, nazirliyin kollektivi, vətəndaş cəmiyyəti və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan ədliyyəsinin müasir fəaliyyətinə həsr olunmuş qısametrajlı film nümayiş etdirilib.

Peşə bayramı günü münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edən nazir F.Məmmədov Azərbaycan ədliyyəsinin tarixindən və inkişaf yolundan, ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə son illər bütün sahələrdə sürətli tərəqqiyə nail olunmasını vurğulayıb, ədliyyə və məhkəmə sistemində aparılan uğurlu islahatlardan danışıb.

Sonra fəaliyyətində fərqlənmiş bir qrup əməkdaşa xüsusi rütbələr və mükafatlar verilib.



Mərasimdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri F.Abdullayev hüquq ictimaiyyəti üçün əlamətdar olan ədliyyə işçilərinin peşə bayramının ulu öndər Heydər Əliyev tərəfindən təsis edilməsini məmnunluqla xatırladıb, məhkəmə-hüquq sahəsində əldə olunan və beynəlxalq aləmdə təqdir edilən nailiyyətləri qeyd edib, ədliyyə işçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Ali Məhkəmənin sədri R.Rzayev peşə bayramı münasibətilə təbriklərini çatdırıb, ədliyyənin intibah dövrünün müstəqillik illərində ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən demokratik hüquqi dövlət quruculuğu prosesi ilə başlandığını qeyd edib, ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə və məhkəmə sisteminin inkişafına diqqət və qayğısından bəhs edərək ədliyyə işçilərinin bundan sonra da qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklərini vurğulayıb.

Tədbirdə iştirak edən ictimaiyyət nümayəndələri çıxış edərək ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik edib, ötən dövrdə Azərbaycan ədliyyəsinin inkişafı üzrə mühüm addımların atıldığını və yeni-yeni nailiyyətlərin əldə olunduğunu bildiriblər.

Gənc ədliyyə işçiləri ölkəmizdə dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini, ölkə rəhbərliyi tərəfindən Azərbaycan gəncliyinin inkişafı üçün hər cür şəraitin yaradıldığını, ədliyyə sistemində gənclərə hər zaman xüsusi qayğı ilə yanaşıldığını dərin minnətdarlıq hissi ilə qeyd edib, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Tədbirdə ədliyyə işçilərinin Ulu Öndərin müəyyən etdiyi və uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisində və demokratik-hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün əzmkarlıqla və məsuliyyətlə çalışacaqlarından əminlik ifadə olunub.

Sonra tədbir mədəni proqramla davam edib.

# Ədliyyə orqanlarına qulluğa qəbul olunan gənclərlə görüş

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlar, həmçinin kadr seçimi prosesini əhatə edir, bu məqsədlə ədliyyənin müxtəlif sahələrinə işə qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatına xüsusi diqqət yetirilir. Son illər şəffaf seçimlər əsasında yüksək hazırlıqlı, müasir texnologiyalara bələd və mənəvi cəhətdən saf 2.300-ə yaxın gənc qulluğa qəbul olunub.**

Ötən bir ildə isə 640 nəfər ədliyyə orqanlarına işə qəbul edilib ki, onların da böyük əksəriyyətini gənclər təşkil edir. Həmçinin, bu ərəfədə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı 500-nəfərdən çox namizədlə keçirilmiş növbəti müsabiqəyə yekun vurulub, uğur qazanmış 95 namizəd peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlim keçəcəklər.

Nazirlik tərəfindən, həmçinin penitensiar və tibb xidmətlərinin hazırlıqlı və mənəvi cəhətdən saf gənclərlə komplektləşdirilməsi məqsədi ilə qulluğa






qəbulla bağlı açıq müsabiqələr keçirilir, namizədlər müsabiqələrdə geniş iştiraka təşviq olunur, o cümlədən "ASAN Kadr" Karyera Mərkəzinin portalında müvafiq elanlar verilir. Eyni zamanda, təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün xüsusi ixtisaslı gənc kadrlar hazırlanır. Cari ildə aparılmış şəffaf seçimlər nəticəsində 400 nəfər Penitensiar xidmətə işə qəbul edilib.

Bu günlərdə penitensiar və tibb xidmətlərinə təyinat alan 50 nəfərdən çox gənc əməkdaşlarla 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ərəfəsində nazirliyin rəhbərliyinin görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli tərəqqisinin, sabitliyin və təhlükəsizliyinin təmin olunduğunu vurğulayıb, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Məhkəmə və ədliyyə, o cümlədən penitensiar sahədə aparılan islahatlardan geniş söhbət açan nazir dövlət başçısının cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı, habelə penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətləri barədə məlumat verib, gənclərin işlərində məsuliyyətli olmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gənclərə xidməti vəzifələrini layiqincə yerinə yetirmələri barədə tövsiyə və tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Çıxış edən gənclər peşə bayramı ərəfəsində qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində daim layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, aidiyyəti işçilərə xüsusi rütbələr verilib.

# Azərbaycan ədliyyəsi yeni inkişaf mərhələsini yaşayır

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

Müasir Azərbaycan dövlətçiliyinin banisi, ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü artıq 18 ildir ki, ədliyyə və məhkəmə orqanlarında böyük ruh yüksəkliyi ilə geniş qeyd olunur.

Dövlətçilik tariximizdə özünəməxsus yeri olan Azərbaycan ədliyyəsi 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə öz tarixinin mühüm mərhələsinə qədəm qoymuşdur. Ötən dövrə nəzər salanda Ədliyyə Nazirliyinin ölkəmizin hüquq sisteminin inkişafında əvəzsiz rolunun bir daha şahidi oluruq.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan edərək ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimizi bərqərar etmiş, ölkəmizdə demokratik hüquqi dövlət qurulmuş, ictimai-siyasi həyatın bütün sahələrində mütərəqqi islahatlar aparılmaqla davamlı inkişafa nail olunmuşdur.

Ədliyyə sisteminin inkişafının əsaslı dönüş mərhələsi də məhz Ulu Öndərin adı ilə bağlı olmuş, Ədliyyə Nazirliyi müasir dövrün tələblərinə uyğun islahatlar aparılmaqla təkmil bir struktura çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətdə yeri və rolu artmış, ona hüquq mühafizə orqanı statusu verilmişdir. Bu gün geniş səlahiyyətlərə malik olan Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, onun qarşısında duran mühüm vəzifələrin miqyası ciddi şəkildə genişlənmişdir.

Qanun yaradıcılığında fəal iştirak edən nazirlik tərəfindən ötən bir ildə ölkəmizin iqtisadi inkişafına, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş 1.300-ə yaxın normativ hüquqi sənəd layihəsi hazırlanmış, 2.600-dən çox layihə hüquqi ekspertizadan keçirilmiş, əhalinin təmənnasız istifadəsinə verilmiş milli qanunvericiliyin e-qanun.az və huquqiaktlar.gov.az elektron reyestrlərinə 5.100 sənəd daxil edilmiş, həmin bazalara vətəndaşlar tərəfindən başçəkmələrin sayı artaraq 740 mini ötmüşdür.

Əhalinin daha çox təmasda olduğu notariat orqanlarında rəsmiləşdirilən notariat hərəkətlərinin sayı 3.7 milyondan artıq olmuşdur ki, bunun da 92%-i ölkədə geniş tətbiq olunan xüsusi notariat institutunun payına düşür. Həmçinin, qeydiyyat orqanlarında 337 mindən artıq vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilmiş, doğumun sayı 150 min, nikahın sayı isə 65 min təşkil etmişdir.

Notariat institutunun inkişafı, notarius korpusunun şəffaf prosedurlar əsasında formalaşdırılması, xüsusi notariatın və elektron notariatın geniş tətbiqi bu işə böyük töhfələr verir. Təsadüfi deyil ki, Azərbaycanın notariat sahəsindəki nailiyyətlərinə maraq göstərilərək xarici dövlətlərin notariusları tərəfindən müsbət təcrübəmiz öyrənilir, onların iştirakı ilə beynəlxalq seminarlar keçirilir.

Vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan və nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış qeyri-kommersiya təşkilatlarının ölkədə ümumi sayı 4.100-dən artıqdır, KİV-lərin sayı isə 5.200-ə çatmışdır.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlarına uyğun olaraq nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə vətəndaşların qəbuluna, "Qaynar xətt" əlaqə mərkəzinə edilən müraciətlərə xüsusi diqqət yetirilmiş, bu zaman hər bir vətəndaş diqqətlə dinlənilərək, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülmüşdür.

Səyyar qəbullar zamanı nazirliyin rəhbərliyi tərəfindən yerli ədliyyə qurumları və məhkəmələrə baş çəkilərək onların fəaliyyəti və iş şəraiti ilə tanış olunmuş, müşavirələr keçirilərək vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması, onların müraciətlərində qaldırdıqları məsələlərə vaxtında və düzgün baxılması ilə bağlı tapşırıq və tövsiyələr verilmişdir.

Eyni zamanda, Azərbaycan brendi olan və ədliy-





yənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" çərçivəsində 18 milyondan artıq müraciətə baxılaraq vətəndaş məmnunluğuna nail olunmuşdur. Sevindirici haldır ki, təqdim edilmiş sənədlərin 40%-dən çoxu ASAN mərkəzlərində fəaliyyət göstərən ədliyyə qurumlarının payına düşür.

Həmçinin, açıq hökumət prinsiplərinin geniş tətbiqi, nazirliyin internet saytlarının interaktiv rejimdə fəaliyyəti, o cümlədən cari ildə saytlarımızın mobil versiyalarının istifadəyə verilməsi, əhaliyə göstərilən elektron xidmətlər ədliyyə fəaliyyətində şəffaflığın artırılmasına yönələn mühüm tədbirlərdəndir. Vətəndaş cəmiyyəti institutları, xüsusilə müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunan İctimai Komitə ilə səmərəli əməkdaşlığımız da şəffaflığa, ictimai iştirakçılığa xidmət edir. Yeri gəlmişkən, peşə bayramı ərəfəsində İctimai Komitənin yeni tərkibdə ilk iclası olmuş, onlarla görüş keçirilərək, ədliyyənin müxtəlif sahələri üzrə əməkdaşlıq imkanları müzakirə edilmiş, müvafiq tövsiyələr verilmişdir.

Mülki və iqtisadi münasibətlərin sürətlə inkişafı, məhkəmələrdə baxılan işlərin son illər dəfələrlə çoxalması icra xidmətində də iş həcminin artmasına səbəb olmuşdur. Bununla əlaqədar məhkəmə qərarlarının düzgün və vaxtında icrasını təmin etmək, icra mexanizmlərini təkmilləşdirmək məqsədilə təsirli tədbirlər görülür. Ötən bir ildə icra işlərinin sayı 30% artaraq 800 mini ötmüş, görülmüş tədbirlər nəticəsində mülki xarakterli icra sənədlərinin əksər hissəsinin qanunvericiliklə müəyyən olunmuş qaydada icrası təmin edilmişdir. İcra məmurlarının qanuni tələblərini yerinə yetirməyən və icradan yayınan 4.000 nəfər inzibati məsuliyyətə cəlb olunmuş, o cümlədən 2.700 nəfər məhkəmələr tərəfindən inzibati qaydada həbs edilmiş, 337 nəfər barəsində cinayət işi başlanmışdır.

Nazirliyin İstintaq idarəsində ədalət mühakiməsi əleyhinə, o cümlədən məhkəmə qərarlarının icra olunmaması ilə bağlı 586 cinayət işinin istintaqı tamamlanmış, bir çox məhkəmə qərarlarının icrasına istintaq zamanı nail olunmuşdur.

Ölkədə bütün növ (qeyri-tibb) məhkəmə ekspertizalarını həyata keçirən və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə töhfələr verən Məhkəmə ekspertizası mərkəzinə daxil olmuş işlərin sayı 35 minə çatmış, ekspertlər 790.000-ə yaxın suala cavab verməklə qaldırılmış məsələlərin 99,4 faizini həll etmişlər.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi üzrə tədbirlər davam etdirilərək 67 mindən çox bələdiyyə aktı yoxlanılmış, qanunsuz qərarların ləğvinə nail olunmuş, aşkar edilmiş cinayət xarakterli pozuntularla bağlı 23 fakt üzrə materiallar prokurorluğa göndərilmiş, qanunsuz ayrılmış minlərlə torpaq sahəsi geri qaytarılmışdır.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin ədliyyə orqanlarında işlə təminatı daim diqqətdə saxlanılır, onlara xüsusi qayğı ilə yanaşılır. Bu gün ədliyyə sistemində çalışan işçilərin demək olar ki, hər ikisindən birini gənclər təşkil edir. Ədliyyə orqanlarına qulluğa qəbul mütəmadi xarakter daşıyır və son illər şəffaf seçimlər əsasında 2.300-ə yaxın gənc ədliyyənin müxtəlif sahələrinə işə qəbul olunmuşdur.

Ötən bir ildə isə 640 nəfər ədliyyə orqanlarına işə qəbul edilmişdir ki, onların da böyük əksəriyyətini gənclər təşkil edir. Yeri gəlmişkən, bu günlərdə 116 nəfər daimi qulluğa qəbul olunaraq xüsusi rütbələr almış, ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş növbəti müsabiqəyə yekun vurulmuş, uğur qazanmış 95 namizəd Ədliyyə Akademiyasında icbari təlimə buraxılmışdır. Həmçinin bölgələrdə yerli hüquqşünasların işlə təmin



*Ədliyyə orqanlarına qulluğa qəbul olunan gənclərlə görüş, noyabr 2017-ci il*

olunması diqqət mərkəzində saxlanılaraq müxtəlif bölgələrdə fəaliyyət göstərən notariat orqanlarında çalışmaq istəyən şəxslər üçün müsabiqə elan olunmuş və sənəd vermiş 90 nəfərdən artıq namizədlə bu günlərdə test imtahanı keçiriləcəkdir.

Eyni zamanda, penitensiar və tibb xidmətlərində mənəvi cəhətdən saf və hazırlıqlı gənc kadrların qulluğa qəbulu ilə bağlı mütəmadi açıq müsabiqələr keçirilir, namizədlər müsabiqələrdə geniş iştiraka təşviq olunur, o cümlədən "ASAN Kadr" Karyera Mərkəzinin portalında müvafiq elanlar verilir. Cari ildə aparılmış şəffaf seçimlər nəticəsində 400 nəfər Penitensiar xidmətə işə qəbul edilmişdir. Elə bu günlərdə daha 52 nəfər Penitensiar və tibb xidmətlərinə təyinat almışlar. Hazırda Penitensiar xidmətdə orta rəis heyətinə qulluğa qəbulla bağlı müsabiqədən keçmiş 75 nəfər Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilmişlər.

Həmçinin, ixtisaslı kadrlara ehtiyac nəzərə alınaraq təhsil müəssisələri ilə səmərəli əlaqələr qurulmuş, o cümlədən Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün xüsusi ixtisaslı gənc kadrlar hazırlanır. Bu il daha 25 nəfər seçilərək Ryazan Hüquq və İdarəçilik Akademiyasına təhsil almaq üçün göndərilmişdir. Onlar sentyabr ayından tədrisə başlamışlar.

Yeri gəlmişkən, nəzəri bilik və peşə hazırlığının artırılması, peşəkar mütəxəssis kimi püxtələşmələri məqsədilə ədliyyə işçiləri və digər hüquqşünaslar Ədliyyə Akademiyasında silsilə tədris tədbirlərinə, o cümlədən beynəlxalq təşkilatlarla birgə keçirilən layihələr çərçivəsində treninqlərə, ixtisasartırma kurslarına cəlb olunmuşlar. Bununla yanaşı, Akademiyanın elektron resurslarla zəngin Elmi Kitabxanasının ictimaiyyət üçün açıqlığı, əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardım göstərən Hüquq Klinikasının fəaliyyəti təmin edilmişdir.

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, sosial reabilitasiyası, məşğulluğu, asudə vaxtının təşkili, onlara yüksək keyfiyyətli tibbi yardımın göstərilməsi ilə bağlı əlavə tədbirlər görülmüşdür.

Cəzaçəkmə müəssisələrində vərəmlə mübarizədə müsbət təcrübəmiz cari ildə də müxtəlif dövlətlərin nümayəndələri tərəfindən öyrənilmiş, nazirliyin İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində fəaliyyət göstərən Beynəlxalq təlim mərkəzi tərəfindən onlar üçün beynəlxalq seminarlar təşkil edilmişdir.

Bununla belə ötən ay 2 təqsirləndirilən şəxsin müşayiət altından qaçması Penitensiar xidmətdə nöqsanlar və problemlərin olduğunu göstərmiş, nazirlik tərəfindən aidiyyəti qurumlarla birgə aparılmış təxirəsalınmaz tədbirlər nəticəsində həbsdən qaçmış şəxslərdən biri Penitensiar xidmət tərəfindən tutulmuş, digəri isə polis orqanları tərəfindən zərərsizləşdirilmişdir.

Eyni zamanda, xidməti yoxlama aparılaraq qanun pozuntularına və digər nöqsanlara yol verən əməkdaşlar ciddi intizam məsuliyyətinə cəlb olunmuş, fakt üzrə prokurorluq tərəfindən cinayət işi başlanılaraq istintaq aparılır. Penitensiar xidmətin fəaliyyətində nizam-intizamın, əməliyyat-rejim və mühafizə tədbirlərinin, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, qanunvericiliyin tələblərinə dönmədən əməl edilməsi ilə bağlı təsirli tədbirlər müəyyən edilərək həyata keçirilir.

Ədliyyə Nazirliyi tərəfindən hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, müsbət beynəlxalq təcrübənin öyrənilib tətbiq olunması daim diqqət mərkəzində saxlanılaraq, 31 xarici ölkənin, o cümlədən Avropa İttifaqı dövlətlərinin Ədliyyə nazirlikləri ilə ikitərəfli sazişlər imzalanaraq səmərəli




*Xarici dövlətlərin Ədliyyə nazirlikləri ilə hüquqi sahədə əməkdaşlıq sənədlərinin imzalanması, 2017-ci il*

əməkdaşlıq edilir.

Cari il beynəlxalq hüquqi əməkdaşlığın inkişafı baxımından məhsuldar və zəngin olmuş, Gürcüstan, İran, İndoneziya, Belarus, Ukrayna və Latviyanın ədliyyə nazirləri ölkəmizə, tərəfimizdən isə Əlcəzairə və Latviyaya səfərlər edilmiş, ədliyyə sahəsində mühüm sənədlər imzalanaraq ölkə Prezidentinin fərmanları ilə təsdiq olunmuşdur.

2017-ci ildə "İslam Həmrəyliyi İli" çərçivəsində İran İslam Respublikası və Əlcəzair Xalq Demokratik Respublikası ilə ikitərəfli münasibətlər inkişaf etdirilmiş, İranın ədliyyə naziri Azərbaycana səfər edərək nazirliklər arasında hüquqi sahədə əməkdaşlığın genişləndirilməsini təşviq edən Birgə Bəyanat imzalanmışdır. Qonaq ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişdir. İran nümayəndə heyəti ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları ilə də tanış olmuşdur. Həmçinin aprel ayında tərəfimizdən Əlcəzairə səfər edilmiş, bu ölkənin Baş naziri, ədliyyə naziri ilə və digər rəsmi görüşlər keçirilərək əməkdaşlıq perspektivləri müzakirə edilmiş, Ədliyyə nazirlikləri arasında imzalanmış Anlaşma Memorandumu iki ölkə arasında bağlanmış ilk sənəd olmuşdur.

Bundan əlavə Ukraynanın ədliyyə naziri ölkəmizdə səfərdə olmuş, ədliyyə və məhkəmə sistemindəki nailiyyətlərə, "ASAN xidmət"in fəaliyyətinə böyük maraq göstərmişdir.

Avropa İttifaqı üzvü olan Latviya, habelə Belarusla hüquqi sahədə əməkdaşlıqda yeni səhifə açılmış, həmin ölkələrin Ədliyyə nazirlikləri ilə qısa müddətdə əməkdaşlığa dair sənəd layihələrinin razılaşdırılaraq cari ilin sentyabrında nümayəndə heyətimizin Latviyaya, Belarus ədliyyə nazirinin isə Azərbaycana səfəri çərçivəsində imzalanması qarşılıqlı fəaliyyətin genişləndirilməsinə böyük təkan vermişdir. Həmin ərəfədə, həmçinin Belarus Daxili İşlər Nazirliyi Cəzaların icrası departamentinin rəhbəri nümayəndə heyəti ilə ölkəmizdə səfərdə olmuş, Penitensiar xidmətin fəaliyyəti ilə yaxından tanış olmuş, iki qurum arasında əməkdaşlığa dair sənəd imzalanmışdır.

Ötən ay isə Latviyanın ədliyyə naziri Azərbaycanda səfərdə olmuş, ədliyyə və məhkəmə islahatları ilə yaxından tanış olaraq elektron ədliyyə xidmətləri və müxtəlif reyestrlərə, həmçinin məhkəmə hakimiyyətinin müstəqil özünüidarə modeli olan Məhkəmə-Hüquq Şurasının fəaliyyətinə maraq göstərmişdir.

Qeyd olunmalıdır ki, cari ildə ədliyyə nazirləri səviyyəsində qarşılıqlı ikitərəfli səfərlərin həyata keçirilməsi, əməkdaşlığa dair mühüm sənədlərin imzalanması ölkəmizin daha geniş coğrafiyada dünya dövlətləri ilə hüquqi əlaqələrinin inkişafına xidmət etmişdir.

Beynəlxalq tədbirlər və ikitərəfli səfərlər zamanı həmkarlarımızla keçirilən bütün görüşlərdə ölkə Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi ilə respublikamızın hərtərəfli tərəqqisi, həyata keçirilən çoxşaxəli islahatlar barədə müfəssəl məlumatlar verilmiş, həmsöhbətlərin diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, torpaqlarımızın 20%-nin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb olunmuşdur.

Eyni zamanda, hər bir demokratik cəmiyyətdə müstəsna əhəmiyyət kəsb edən məhkəmə hakimiyyətinin müstəqilliyinə xidmət edən islahatlar uğurla davam olunaraq mühüm nailiyyətlər qazanılmışdır.

Məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinə xüsusi önəm verən dövlət başçısının rəhbərliyi ilə bu sahədə aparılan islahatlar, məhkəmə haki-



*İmişli Rayon Məhkəməsinin yeni binası*



*Qəbələ Rayon Məhkəməsinin yeni binası*

miyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin xeyli genişləndirilməsi, hakimlərin ən şəffaf seçimi, Dünya Bankı ilə birgə əməkdaşlıqda məhkəmə infrastrukturun müasirləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin və müasir İKT-lərin geniş tətbiqi məhkəmələrin müstəqilliyini, şəffaflığını və əlçatanlığını daha da artırır.

Cari ilin iyununda möhtərəm Prezidentimizin iştirakı ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni müasir binasının açılışı xüsusilə əlamətdar olmuşdur. Eyni zamanda, məhkəmə infrastrukturunun müasirləşdirilməsi paytaxtla yanaşı, respublikamızın müxtəlif bölgələrində də davam etdirilərək, bu il daha iki rayonda - İmişli və Qəbələdə yeni məhkəmə binaları inşa olunaraq istifadəyə verilmişdir.

Bu məhkəmə binalarında insanlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, məhkəmə proseslərinin şəffaf, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilməsi, habelə vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısının alınması məqsədilə hər cür şərait yaradılmışdır. Ölkə Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən təsbit edilmiş "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə, o cümlədən Dünya Bankı ilə birgə əsaslı işlər görülür, müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq olunur, məhkəmə sisteminin vahid internet portalı zənginləşdirilmiş, burada elektron "şəxsi kabinet" yaradılmış, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi, proseslərinin audio-video qeydə alınması, elektron sənəd dövriyyəsi təmin olunmuş və elektron icranın tətbiqinə başlanılmışdır.

Cari ilin sonunadək ölkə üzrə bütün məhkəmələrin 60 faizini əhatə edəcək elektron məhkəmə sisteminin tətbiqi ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərməklə insanlara daha əlverişli və rahat şərait yaradacaqdır.

Məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf şəxslərin təmsil olunması, hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə ardıcıl tədbirlər görülmüş, birinci instansiya və apellyasiya məhkəmələrinin 115 hakiminin fəaliyyəti prinsipial qiymətləndirilmiş, vətəndaşların haqlı narazılığını doğuran nöqsan və pozuntulara yol verməri nəzərə alınaraq 20 hakimin, o cümlədən 7 məhkəmə sədrinin hakimlik səlahiyyətlərinə xitam verilmiş, 6 məhkəmə sədri və apellyasiya məhkəmələrinin 8 hakimi aşağı işə keçirilmişdir.

Eyni zamanda, vakant hakim vəzifələrinə seçim prosesi davam olunaraq, mütərəqqi beynəlxalq standartlar səviyyəsində, ən şəffaf üsullarla keçirilmiş seçimdən uğur qazanmış 126 nəfər namizəd hazırda Ədliyyə Akademiyasında uzunmüddətli tədris kursu keçir. Kurs zaman onların nəzəri bilik və peşə hazırlığına, həmçinin beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetirilir. Bu məqsədlə cari ildə bütün namizədlər Türkiyədə iki həftəlik treninqə cəlb olunmuş, həmçinin Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsində tədris səfərlərində olmuşlar.

Ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması nəticəsində məhkəmələrin iş yükünün artması nəzərə alınaraq bu sahədə beynəlxalq təcrübə öyrənilmiş, mülki xarakterli işlərin məhkəmədən kənar həlli yolları axtarılmış, mediasiya institutunun yaradılması məqsədlə bir sıra addımlar atılmış, icra işlərinə xitam verilməsi və dayandırılması səlahiyyətləri icra məmurlarına verilmişdir.

Mülki xarakterli işlərin böyük bir hissəsini əmr icraatı qaydasında baxılan tələblər təşkil edir. Bu sahədə beynəlxalq təcrübə göstərir ki, həmin işlərə

məhkəmələr tərəfindən elektron qaydada, yaxud notariuslar tərəfindən icra qeydi aparılmaqla baxılması səmərəli nəticələr verir. Bununla əlaqədar məhkəmələrin iş yükünün azaldılması, işlərə daha qısa müddətdə baxılması məqsədilə yeni prosedurların tətbiqi ilə bağlı qanun layihələri hazırlanmışdır.

Məhkəmə islahatlarımız, o cümlədən tətbiq olunan yeniliklər beynəlxalq aləmdə böyük maraq doğurur və əldə olunan uğurlar təqdir edilir. Belə ki, Avropa Şurası dövrü nəşrlərində bu sahədəki işlərimizin işıqlandırılmasına xüsusi yer ayırır, Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığı və obyektivliyinə görə digər dövlətlər üçün örnək kimi dəyərləndirir. Həmçinin avropalı ekspertlər ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycanın bir çox Avropa ölkələrinə nümunə olduğunu qeyd edirlər.


AZERBAIJAN AND THE WORLD BANK
25 Years of Partnership for Development

This certificate
is awarded to
JUDICIAL SERVICES AND
SMART INFRASTRUCTURE PROJECT
for developing and applying innovative solutions
to deliver higher quality services to the citizens of Azerbaijan

Abid Sharifov
Deputy Prime Minister
of the Republic of Azerbaijan

Mercy Tembon
The World Bank Regional Director
for the South Caucasus




*Ölkəmizin məhkəmə sistemindəki islahatlarının beynəlxalq təşkilatlar tərəfindən təqdir olunaraq yüksək mükafatlara layiq bilinməsi, 2017-ci il*

Ötən ayın sonlarında isə Avropa Şurası tərəfindən Azərbaycanın təqdim etdiyi "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsinin "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində qalib gələrək ən mütərəqqi layihədən biri kimi mükafata layiq görülməsi dövlətimizin başçısının siyasi iradəsi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarına verilən növbəti qiymətdir.

Eyni zamanda, Azərbaycan Hökuməti və Dünya Bankı ilə əməkdaşlığın 25 illiyinin qeyd olunduğu ərəfədə Dünya Bankı ölkəmizdə ədliyyə sahəsində həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsini ən uğurlu layihə kimi qiymətləndirərək "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi məqsədilə innovativ üsulların yaradılması və tətbiqi" nominasiyasının qalibi elan etmişdir.

Məhkəmə islahatlarımıza artan marağın nəticəsidir ki, təkcə son bir ayda Moskva Şəhər Məhkəməsi sədrinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti ölkəmizə səfər edərək yeniliklərlə, həmçinin elektron məhkəmə üzrə görülən işlərlə tanış olmuş, mütəxəssislərimiz isə Kişinyova səfər etmiş və müsbət təcrübəmizi moldovalı həmkarlarımızla bölüşmüşlər.

Qeyd olunmalıdır ki, həyata keçirilən məhkəmə-hüquq islahatlarının qayəsini, ilk növbədə, insan hüquqlarının etibarlı təminatı, vətəndaşlara qayğılı münasibət, onlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi təşkil edir. Bu da təbiidir, çünki "Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən ölkə Prezidenti mütəmadi olaraq ictimaiyyətlə görüşərək, vətəndaşların qayğıları ilə maraqlanır, onların müraciətlərinə həssaslıqla yanaşılmasını daim diqqət mərkəzində saxlayır, humanizm siyasətini uğurla davam etdirir.

Təsadüfi deyil ki, ötən dövrdə möhtərəm Prezidentimizin imzaladığı sərəncamlarla 3.800-dən çox şəxs əfv olunmuş, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı 40 mindən çox şəxsi əhatə etmişdir.

Həmçinin, dövlət başçısının təşəbbüsü ilə cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına səbəb olmuşdur.

Cəza icra siyasətində mühüm institutlardan olan məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması ilə bağlı nazirlikdə yaradılmış xüsusi Komissiya tərəfindən fəaliyyəti dövründə 8.700-dən çox məhkum vaxtından əvvəl şərti azad olunmağa və ya daha yüngül rejimli müəssisəyə keçirilməyə layiq bilinmiş, məhkəmələr tərəfindən baxılmış həmin işlərdən 97%-i müsbət həll edilmişdir.

Cəmiyyətimizdə rəğbətlə qarşılanan humanist tədbirlər, həmçinin cəza çəkən digər məhkumların islahına öz müsbət həvəsləndirici təsirini göstərərək, onları qanunazidd hərəkətlərdən çəkinməyə sövq edir, haqqa, ədalətə inamını daha da artırır.

Möhtərəm Prezidentimizin humanizm siyasətinin təzahürü olaraq cari il fevralın 10-da imzaladığı



*Ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası*

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı ölkədə cəza siyasətinə, cinayət qanunvericiliyinə baxışın yenilənməsinə, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsinə və dünyada mövcud olan mütərəqqi təcrübələrin tətbiqinə xidmət etməklə bu sahədə islahatların intensiv davamına rəvac vermişdir.

Dövlət başçısının proqram xarakterli Sərəncamından irəli gələn vəzifələrin dürüst və mütəşəkkil icrası məqsədilə ötən dövrdə Ədliyyə Nazirliyi tərəfindən kompleks tədbirlər görülmüş, o cümlədən aidiyyəti qurumlarla birgə işçi qrupu yaradılaraq beynəlxalq təcrübə öyrənilməklə bu sahədə qanunvericilik və məhkəmə-istintaq təcrübəsi təhlil olunmuş, cəza siyasətinin humanistləşdirilməsi, elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı Cinayət və İnzibati Xətalar məcəllələrinə mühüm dəyişikliklər edilmiş, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə dəyişikliklərlə bağlı qanun layihələri hazırlanmışdır.

Belə ki, ölkə Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilmişdir ki, bura humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumetmə cəzalarının azaldılması daxildir. Həmçinin, müvafiq maddələrdə azadlıqdan məhrumetmə ilə yanaşı, yüksək məbləğlərdə cərimə cəzası da tətbiq olunmuş, cinayət tərkiblərinin Məcəllədən çıxarılması yolu ilə bəzi əməllər dekriminallaşdırılmışdır.

Eyni zamanda, azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması və sanksiyalara alternativ cəzaların daxil edilməsi məqsədilə Cinayət Məcəlləsinə azadlığın məhdudlaşdırılması yeni cəza növü daxil edilmişdir. Həmçinin Məcəlləyə elektron nəzarət vasitələrinin tətbiqi, cəzanı yüngülləşdirən halların dairəsinin genişləndirilməsi, cəzanın təyin edilməsi və cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı mühüm dəyişikliklər olunmuşdur.

Bundan başqa, zərərçəkmiş şəxslə barışma institutu təkmilləşdirilmiş, ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, müvafiq hüquqpozmanın aradan qaldırılması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən edilmişdir.

Yeni dəyişikliklərə əsasən, əməlində başqa cinayət tərkibi olmayan narkomaniya xəstəliyinə düçar olmuş şəxslər stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq olunmaqla tam sağaldığı halda cinayət məsuliyyətindən azad ola biləcəklər.

Bütün bunlar insanların azadlıq hüququnun qorunmasına, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsinə xidmət edir.

Eyni zamanda, ölkə Prezidentinin Sərəncamı ilə təsbit edilmiş Probasiya xidmətinin yaradılması üzrə mühüm addımlar atılmış, o cümlədən qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, bu institutun əhəmiyyəti və yeniliyi nəzərə alınaraq probasiya fəaliyyəti ilə məşğul olacaq əməkdaşlar üçün Ədliyyə Akademiyasında treninqlər keçirilmişdir.

Xidmətin fəaliyyətinin səmərəli və mütəşəkkil təşkili məqsədilə möhtərəm Prezidentimiz tərəfindən cari il noyabrın 7-də ədliyyə fəaliyyəti ilə bağlı qanunvericiliyə mühüm dəyişikliklər edilərək nazirliyin aparatında ayrıca baş idarə səlahiyyətli Probasiya xidməti yaradılmışdır.

Sərəncamın əsas yeniliklərindən biri olan cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmişdir.

Bu mühüm sənədin qəbul olunduğu vaxta təsa-



“Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyətinin təşkil edilməsi məqsədi ilə qərara alıram:

1. “Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı ilə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671; 2007, № 12, maddə 1223; 2009, № 12, 1826; 2017, № 6, maddə 1072) təsdiq edilmiş “Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu”nun 2-ci hissəsinin yeddinci - on dördüncü abzasları müvafiq olaraq səkkizinci - on beşinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“Probasiya xidməti (baş idarə səlahiyyətli)”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin kadr korpusunun formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin işçilərinin ümumi say həddini 65 ştat vahidi artırsın;

2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin təşkil edilməsi ilə bağlı müvafiq tədbirlər görsün;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 noyabr 2017-ci il

düf edən Gürcüstan ədliyyə nazirinin ölkəmizə səfəri zamanı qonşu dövlətin probasiya xidməti və "elektron qolbağ"ın tətbiqi ilə bağlı müzakirələr aparılmış və bu təcrübə ilə tanış olmaq barədə razılığa gəlinərək nümayəndə heyətimiz Gürcüstana səfər etmişdir.

Artıq "elektron qolbağ"ın pilot qaydada sınaqları keçirilmiş və hazırda ölkəmiz üçün daha uyğun modelin müəyyən olunması üzrə işlər yekunlaşmaqdadır.

Bununla yanaşı, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan, o cümlədən ictimai işlər cəzasının effektiv icrası üzrə tədbirlər görülmüş, "elektron icra" sistemi vasitəsilə ictimai işlər cəzasını çəkən şəxslərə və icra prosesinə nəzarət gücləndirilmiş, bu cəzanın səmərəli tətbiqi məqsədilə qanunvericilik təkmilləşdirilərək Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli Qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilmiş, 2017-ci il 20 oktyabr tarixli Qanunla İnzibati Xətalar Məcəlləsinə ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslərin məsuliyyəti ilə bağlı dəyişikliklər olunmuşdur.

Sərəncamda verilmiş tapşırıqların icrası çərçivəsində, həmçinin məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın qanunvericiliyin tələblərinə uyğun çəkilməsi, rejim qaydalarına ciddi riayət olunması ilə bağlı tədbirlər müəyyən olunmuş, habelə mövcud istehsal sahələrinin bərpası və yenilərinin yaradılması, bu fəaliyyətə sahibkarların, iş adamlarının daha geniş cəlb olunması ilə bağlı mühüm addımlar atılmış, məhkumların istehsal etdikləri məhsulların satış dairəsini genişləndirmək məqsədi ilə müasir informasiya texnologiyaları tətbiq olunmaqla "Həbsxana incəsənəti" adlı onlayn market yaradılmışdır.

Məhkəmə-hüquq islahatlarının yeni mərhələdə həyata keçirilməsinə rəvac verən bu mühüm Sərəncamın icrası üzrə tədbirlər davam etdirilir.

Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən tədbirlər və qazanılan nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların real təzahürüdür.

Fəxrlə deyə bilərik ki, dövlət başçısının qəti siyasi iradəsi ilə ölkəmiz bütün dünyada hökm sürən qlobal iqtisadi böhran şəraitində belə uğurla inkişaf edir. Bunu cari ildə respublikamızın sosial-iqtisadi inkişafının göstəriciləri bir daha sübut edir. 2017-ci ilin 9 ayı ərzində qeyri-neft iqtisadiyyatımız 2,5 faiz, sənaye 3,1 faiz, kənd təsərrüfatı 2,8 faiz artmış, xarici ticarət dövriyyəsində 7 faiz artım müşahidə olunmuşdur. Həmçinin, Azərbaycanın valyuta ehtiyatları cari ildə 4,5 milyard artaraq hazırda bu rəqəm 42 milyard dollar səviyyəsində olmuşdur. Regionların sosial-iqtisadi inkişafı üzrə görülən tədbirlər nəticəsində çoxsaylı müəssisələr və sosial obyektlər istifadəyə verilmişdir ki, nəticədə 226 min yeni iş yeri açılmışdır.

Dövlət başçısının Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş yubiley mərasimində çıxışında qeyd etdiyi kimi, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır.

Təsadüfi deyil ki, ölkəmizdə aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən yüksək qiymətləndirilir. Belə ki, Davos Dünya İqtisadi Forumunun hesabatında ölkəmiz iqtisadi rəqabətqabiliyyətliliyinə görə cari ildə 140 ölkə arasında iki pillə irəliləyərək 35-ci yerə yüksəlmişdir və MDB məkanında liderliyini qoruyur. Eyni zamanda, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2018" hesabatında Azərbaycan 8 pillə irəliləyərək 190 ölkə arasında 57-

ci yerə qalxmış, həmçinin Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşmişdir.



Azərbaycanın təşəbbüskarı olduğu irimiqyaslı neft və qaz layihələrinin, o cümlədən TAP, TANAP, "Cənub Qaz Dəhlizi" layihələrinin həyata keçirilməsi, bu il "Əsrin kontraktı"nın uzadılması ilə bağlı respublikamızın gələcək inkişafını təmin edən yeni Sazişin imzalanması ölkəmizin iqtisadi potensialını artırmaqla qlobal enerji təhlükəsizliyi təminatında əvəzsiz rola malik olduğunu təsdiqləyir. Bu yaxınlarda dövlətimizin başçısının siyasi iradəsi və bilavasitə təşəbbüsü ilə dünya əhəmiyyətli daha bir layihənin gerçəkləşdirilməsi - Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi regionda sülhə və sabitliyə, iqtisadi inkişafa böyük töhfə olmuşdur.

Xüsusilə qeyd olunmalıdır ki, gündən-günə qüdrətlənən Milli Ordumuzun düşmənin təxribatlarının qarşısını qətiyyətlə alması, ötən il minlərlə hektar torpağımızın işğaldan azad olunması, o cümlədən Cocuq Mərcanlı kəndinin qısa zamanda bərpası və orada aparılan misilsiz quruculuq işləri böyük qayıdışın başlanğıcı olmaqla xalqımızı yüksək qələbələrə ruhlandırır.

Dövlət başçısının rəhbərliyi ilə respublikamızın yeni qlobal çağırışlara uyğun davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həllində, elmin, təhsilin və səhiyyənin inkişafına hesablanmış mühüm layihələrin müvəffəqiyyətlə həyata keçirilməsində, humanizm, tolerantlıq ideya və prinsiplərinin uğurla inkişaf etdirilməsində, Azərbaycanın dünyamiqyaslı mühüm ictimai-mədəni tədbirlərə, mötəbər beynəlxalq forumlara ev sahibliyi etməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Bütün bunlar respublikamızda hərtərəfli tərəqqinin və yüksəlişin bariz nümunəsi olmaqla xalqımızda yüksək iftixar hissi doğurur. Peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edən ədliyyə işçiləri də dövlət başçısının ətrafında sıx birləşməklə ölkəmizin müasir inkişafına uyğun olaraq öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək, daha məsuliyyətlə çalışmaq əzmindədirlər.

Hər il peşə bayramı günündə ədliyyə işçiləri Fəxri Xiyabana gələrək bu bayramı bizlərə bəxş etmiş ümummilli liderimiz Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirir, Şəhidlər Xiyabanında qəhrəman Vətən övladlarının əziz xatirəsini yad edirlər. Bu günlər bütün ədliyyə sistemində bayram abhavası yaşanır, Azərbaycan ədliyyəsinin keçdiyi tarixi yola nəzər salınır, ədliyyə orqanlarında və məhkəmələrdə silsilə bayram tədbirləri təşkil olunur. Bu ərəfədə həmçinin, ədliyyə veteranları və gənc mütəxəssislərlə görüşlər, yığıncaqlar, idman turnirləri keçirilmiş, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təcrübəli həkim heyəti tərəfindən nazirlikdə ədliyyə işçilərinin səyyar oftalmoloji müayinəsi aparılmış, habelə nazirliyin builki fəaliyyətinə həsr olunmuş qısametrajlı sənədli film hazırlanmışdır.

Fürsətdən istifadə edərək, peşə bayramı münasibətilə bütün ədliyyə işçilərini ürəkdən təbrik edir, onlara qanunun aliliyinin və insan hüquqlarının təmin olunması kimi gərəkli fəaliyyətlərində nailiyyətlər arzulayıram. Əminəm ki, ədliyyə işçiləri bundan sonra da böyük səy və yüksək məsuliyyət hissi ilə çalışacaq və bu sahədə əldə etdiyimiz nailiyyətlərlə gələn il Azərbaycan ədliyyəsinin 100 illiyinə böyük töhfə verəcəklər.

# Azərbaycanın məhkəmə sistemindəki nailiyyətləri Avropa dövlətlərinə parlaq nümunədir

*Mətbuatda xəbər verildiyi kimi, bu yaxınlarda ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülmüşdür. Bununla əlaqədar* ***ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü, II dərəcəli dövlət ədliyyə müşaviri Azər Cəfərovun*** *fikirlərini oxucularımızla bölüşmək istədik.*

**- Azər müəllim, ilk növbədə, Sizi və bütün kollektivinizi qarşıdan gələn peşə bayramınız münasibətilə təbrik edirik. Birinci sualımız ölkəmizin məhkəmə sahəsindəki nailiyyətlərinin mükafata layiq görüldüyü Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsi ilə bağlıdır. Bu müsabiqənin mahiyyəti barədə nə deyə bilərsiniz?**



- Çox sağ olun. Qarşıdan 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü gəlir. Bir əsrə bərabər zəngin tarixi olan Azərbaycan ədliyyəsi bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf dövrünü yaşayır, mütərəqqi islahatlar aparılmaqla təkmilləşir və yeniləşir. Belə bir əlamətdar gündə ədliyyə və məhkəmə sisteminin nailiyyətlərindən söhbət açmaq olduqca xoşdur.

Qeyd etməliyəm ki, Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatı ədalət mühakiməsinin həyata keçirilməsi, məhkəmə prosedurları və məhkəmələrin işinin təşkili sahəsində innovativ və effektiv təcrübələrin aşkarlanması və yayılması məqsədilə keçirilən bir müsabiqədir. Əvvəllər bu müsabiqə hər il keçirilirdi və mülki, cinayət mühakiməsi sistemlərinə həsr olunurdu. 2012-ci ildən etibarən isə iki ildən bir keçirilən müsabiqə ədliyyənin bütün sahələrini əhatə edir. Burada Avropa Şurasının üzv dövlətləri, eləcə də beynəlxalq təşkilatlar müxtəlif layihələrlə, nəticələrlə iştirak edir və həmin təcrübələr ədalət mühakiməsinin səmərəliliyinin artırılması naminə siyasətçilərin, habelə geniş hüquq ictimaiyyətinin diqqətinə çatdırılır.

Müsabiqədə təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə müəyyən olunur. Bu zaman beş əsas meyar üzrə qiymətləndirmə aparılır: səmərəlilik, yenilik, davamlılıq, gələcək inkişaf imkanı və digər üzv-dövlətlərdə tətbiqinin mümkünlüyü.

Ölkəmiz də bu müsabiqədə Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak edərək mükafata layiq görülmüşdür.

**- Necə oldu ki, müsabiqəyə məhz belə bir layihə ilə qatılmaq qənaətinə gəldiniz?**

- Müsabiqəyə hazırlaşarkən əvvəlcə müxtəlif layihələr nəzərdən keçirilmişdir, lakin biz daha çox məhkəmə fəaliyyətinin səmərəli təşkili baxımından əhəmiyyətli ola biləcək, eyni zamanda Avropa Şurasının qiymətləndirmə meyarlarına uyğun layihə ilə iştirak etmək qənaətindəydik. Və nəhayət, biz "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihənin üzərində dayanmağı lazım bildik. Bəllidir ki, ölkə Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə təsbit edilmiş "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə əsaslı işlər görülür və artıq onun bir çox komponentləri məhkəmələrdə tətbiq olunur. Eyni zamanda, vətəndaşlara hüquqi xidmətlərin yaxşılaşdırılması məqsədilə 2011-ci ildən istifadəyə verilmiş məhkə-

mə sisteminin vahid internet portalı xeyli zənginləşdirilmiş, burada "elektron şəxsi kabinet", eləcə də məhkəmələrdə elektron idarəetmənin aparılmasına xidmət edən "Nəzarət pəncərəsi" modulu yaradılmışdır. Bu sistem məhkəmə sədrinə işlərin təşkili və icrası vəziyyətinə elektron qaydada nəzarət etməyə imkan verir. Hakimlər isə bu modul vasitəsilə icraatında olan işlər, o cümlədən proseslərin təyin olunması müddəti, işə dair zəruri sənədlər və habelə prosessual pozuntulara yol verilməməsi barədə qabaqcadan məlumatlandırılırlar.

Bu sahədə islahatlara və tətbiq olunan yeniliklərə beynəlxalq marağın artmasını nəzərə alaraq, eyni zamanda, informasiya texnologiyalarının geniş vüsət aldığı müasir dövrdə elektron məhkəmə sisteminin mötəbərliyini, effektivliyini, məhkəmələrin idarə olunmasında mühüm rolunu təlqin və təşviq etmək üçün müsabiqəyə məhz bəhs etdiyimiz layihəni təqdim etdik.

Bildirmək istərdim ki, "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsinin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasından ibarətdir. Elmi cəhətdən əsaslandırılmış bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını, məhkəmə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onun məhsuldarlığının müəyyən edilməsini mümkün edir. Bununla məhkəmə sistemində strateji idarəetmənin və planlaşdırmanın səmərəliliyi əhəmiyyətli dərəcədə artırılır, daha geniş məlumat göstəriciləri üzrə qərar vermək imkanları yaradılır.

Ümumiyyətlə, məhkəmə fəaliyyətinin idarə olunması zamanı hakimlərin iş yükünün qiymətləndirilməsi, bu zaman icraatda olan işlərə baxılmasının tezliyi və keyfiyyəti, bu sahədə çatışmazlıqları aşkara çıxarmaqla zəruri tədbirlərin görülməsi, hakimlərin işinin səmərəliliyinin artırılması və bu kimi digər məsələlər hər zaman bütün dövlətləri düşündürmüş və bununla bağlı məhkəmə fəaliyyətinin qiymətləndirilməsinə dair metodologiyalar işlənib hazırlanmışdır. Yəqin siz də razılaşarsınız ki, qiymətləndirilə bilməyən fəaliyyətin idarə olunması olduqca çətindir.

Yeri gəlmişkən deyim ki, qiymətləndirmə metodologiyası ilə bağlı dünyada müxtəlif yanaşmalar mövcuddur. Məsələn, məhkəmə fəaliyyətinin elektron qaydada qiymətləndirilməsi sahəsində öz modelini yaratmış 3 əsas beynəlxalq təşkilat var: Avropa, Asiya, Avstraliya və ABŞ təşkilatlarının beynəlxalq konsorsiumu (IFCE), Amerika Birləşmiş Ştatları Məhkəmələrinin Milli Mərkəzi (NCSC) və Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ). Bu qurumlar qiymətləndirmə metodikasını müxtəlif indikatorlar üzrə aparır.

Ona görə də layihə təqdim olunmazdan əvvəl, doğru olaraq bu sahədə ixtisaslaşan beynəlxalq qurumların təcrübəsi nəzərdən keçirilmiş, Kanada, Avstriya, Bosniya və Avstraliyadan olan mütəxəssislərlə məsləhətləşmələr aparılmış və mütərəqqi tədqiqatlar öyrənildikdən sonra ölkəmiz məhkəmə fəaliyyətinin qiymətləndirilməsi sahəsində öz modelini yaratmışdır. Belə ki, Dünya Bankı ilə birgə həyata keçirdiyimiz "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Azərbaycanın hüquq sistemi və ənənələri nəzərə alınmaqla 3 mühüm meyara (vaxt, keyfiyyət, məhsuldarlıq) əsaslanaraq 12 göstəricidən ibarət qiymətləndirmə metodikası işlənib hazırlanmışdır.

Artıq pilot qaydada məhkəmələrdə tətbiq olunan "Məhkəmənin Nəbzi" elektron idarəetmə sistemi Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, yuxarı instansiya məhkəmələri, məhkəmə sədrləri və hakimlərə imkan verir ki, onlar məhkəmənin, yəni hakimin fəaliyyəti üzrə qiymətləndirmə göstəriciləri, o cümlədən müxtəlif kateqoriyalara aid işlər üzrə məhkəmə ümumiləşdirmələrinə dair statistika ilə ani tanış olsunlar. Bununla da uzun müddət və bir neçə işçi qüvvəsi tələb edən statistika işinin aparılması xeyli asanlaşmış olur. Bu sistem, həmçinin hər hansı problemin yaranmasından öncə qabaqlayıcı tədbirləri görməyə imkan verir: məhkəmə büdcələrinin, hakim və məhkəmə işçisi ştatlarının məhkəmələrarası səmərəli bölüşdürülməsi, hakimlərin məhsuldarlığının müəyyən olunması və onların vəzifədə irəli çəkilməsi və s.

Bu sistemin tətbiqinin şəffaflığa, korrupsiyanın qarşısının alınmasına, ən əsası, məhkəmələrin səmərəli idarə olunmasına və fəaliyyətinin düzgün qiymətləndirilməsinə xidmət etməsi heç bir şübhə doğurmur.

Bu səbəbdən də seçimimiz uğurlu alındı və Avropa Şurasına təqdim etdiyimiz layihə müsabiqənin münsiflər heyəti tərəfindən mükafata layiq görüldü.

**- Yəqin ki, qaliblər münsiflər heyəti tərəfindən təqdim olunan layihələrin qiymətləndirilərək seçilməsi nəticəsində müəyyənləşdirilir...**

- Elədir. Müsabiqə Avropa Şurasının Katibliyi tərəfindən formalaşdırılan Münsiflər Heyəti tərəfindən aparılır və onun tərkibi Avropa Şurasının nümayəndələrindən, nüfuzlu alimlərdən, hakimlər və digər hüquqşünaslardan formalaşdırılır. Bu tərkib hər müsabiqə üzrə fərqli olur və tərkib tam müstəqil fəaliyyət göstərir. 2017-ci ildə keçirilən müsabiqədə Münsiflər Heyəti İtaliya, Hollandiya, Yunanıstan, Xorvatiya, Norveç və İsveçrənin sayılıb-seçilən məhkəmə sədrləri və Ədliyyə nazirliklərinin rəhbər işçilərindən ibarət olmuşdur. Norveçdən olan üzv, həm də Avropa Şurası Avropa Hakimlərinin Məşvərətçi Şurasının prezidenti, İtaliyadan olan üzv isə Münsiflər Heyətinin sədri, CEPEJ-in Məhkəmə vaxtının idarəolunması üzrə SATURN Mərkəzinin prezidentidir.

Bu rəqabətə heç də həmişə bütün üzv-dövlətlər qoşula bilmirlər. Builki müsabiqəyə Avropa Şurasının 18 üzv dövlətindən, əsasən, Qərbi Avropa ölkələrindən və iki beynəlxalq təşkilatdan 37 layihə təqdim olunmuşdur.

Münsiflər Heyəti tərəfindən həmin layihələr, əvvəldə qeyd olunduğu kimi, beş əsas meyar üzrə qiymətləndirilərək onların içərisindən gizli səsvermə yolu ilə ilkin olaraq 10 layihə seçilir. Daha sonra növbəti mərhələdə mükafatlandırmaq üçün həmin layihələrdən 4-ü ən mütərəqqi və qabaqcıl layihə kimi seçilir və qalib gələn hər 4 dövlətin nümayəndəsi mükafatlandırma mərasiminə dəvət olunur.

Cari il sentyabrın 22-də Avropa Şurası Münsiflər Heyətinin Paris şəhərində keçirilmiş iclasının Qərarına əsasən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" adlı layihəsi məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək qalib gəlmiş 4 layihə sırasına daxil edilmişdir. Qalib gələn digər üç layihə Norveç, Bolqarıstan və İtaliya tərəfindən təqdim olunmuşdur.

Məlumat üçün deyim ki, hər il oktyabrın 25-i Avropa məkanında "Avropa Ədliyyə Günü" kimi qeyd olunur və "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatlandırma mərasimi də ənənəvi olaraq məhz həmin ərəfədə keçirilir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Edinburq şəhərində tarixi "Parlament Evi"ndə təşkil edilmiş builki mükafatlandırma mərasimində Avropa Şurasının rəsmiləri, Avropanın tanınmış hüquqşünas alimləri, Şotlandiyanın yüksək səviyyəli hakimləri, ədliyyə qurumlarının rəhbərləri və lordlar iştirak etmiş, ölkəmiz də nümayəndə heyətimizlə təmsil olunmuşdur.

Mərasimdən əvvəl təşkil olunmuş dəyirmi masada dünyada ədliyyə və məhkəmə sistemində həyata keçirilən islahatların prioritetləri barədə ekspertlərin iştirakı ilə müzakirələr aparılmışdır.

Ölkəmizin layihəsinin təqdimatı zamanı son illərdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və digər yeniliklər barədə məlumat verilmiş, dövlətimizin təqdim etdiyi layihənin əhəmiyyətindən danışılmışdır.

Tədbirdə məhkəmə sisteminin elektron idarə olunması sahəsində Azərbaycanın təcrübəsi Avropada təqdirəlayiq olduğu vurğulanmış və müvafiq mükafat təntənəli surətdə Azərbaycan tərəfinə təqdim olunmuşdur.

**- Azər müəllim, sosial şəbəkələrin birində belə şayiəyə rast gəlinmişdir ki, guya Azərbaycan heç bir mükafat almamışdır. Buna münasibətiniz necədir?**

- Əvvəldə söylədiklərimdən əmin olursunuz ki, bu, ictimaiyyəti çaşdırmaq üçün təhrif edilmiş fikirdən başqa bir şey deyildir. Ona görə də bu barədə çox danışmağa ehtiyac görmürəm. Ancaq düşünürəm ki, özünü azərbaycanlı hesab edən hər bir kəs bu uğura sevinməli və fəxr etməlidir. Bununla bağlı Avropa Şurasının internet saytından müfəssəl məlumat əldə etmək olar, orada hətta mükafat-

landırma mərasimindən fotolar da yerləşdirilmişdir. İngilisdilli oxucularımız, internet istifadəçilərimiz bu xəbəri çox asanlıqla tapıb oxuya bilərlər.

Həqiqət isə budur ki, iştirakçısı olduğum həmin mükafatlandırma mərasimində gördüyünüz bu "Ədliyyənin Kristal Tərəzisi" mükafatı *(müsahibim burada həmin mükafatı əyani şəkildə bizə nümayiş etdirir - red.)* müsabiqənin Münsiflər Heyətinin rəhbəri tərəfindən Azərbaycana və digər qalib ölkələrin hər birinə ayrıca təqdim edilmişdir.

**- Doğrudur. Əslində bu yüksək mükafat ölkəmizdə məhkəmə sistemində aparılan uğurlu islahatların beynəlxalq aləmdə etirafıdır...**

- Əlbəttə. Heç də təsadüfi deyil ki, belə layihələr qiymətləndirilərkən, həm də ölkədə gedən inkişaf prosesi, aparılan mütərəqqi islahatlar izlənilir, nəzərdən keçirilir. Əldə olunan bu nailiyyət də məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin güclü siyasi iradəsi ilə ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatlara verilən yüksək qiymətdir. Bu mükafat, həmçinin Azərbaycanın məhkəmə-hüquq sahəsində Avropa Şurası üzv-dövlətləri arasında ön sıralarda yer almasını təzahür etdirməklə əlaqələrimizin müsbət məcrada inkişafına verilən böyük töhfədir. Bununla Azərbaycanın adı Avropanın məhkəmə tarixinə qabaqcıl təcrübəyə malik olan ölkə kimi düşmüşdür.

Mükafatlandırma mərasimi zamanı Münsiflər Heyətinin rəhbəri ilə görüşümüzdə də ölkəmizə olan marağı açıq-aydın hiss etdik, Azərbaycanın sosial-iqtisadi tərəqqisi, mütərəqqi yeniliklər, müsbət nəticələr, o cümlədən milli brendimiz olan ASAN xidmətin vətəndaş məmnunluğu doğuran fəaliyyəti, respublikamızın mötəbər forumlara ev sahibliyi etməsi xoş təəssüratla qarşılanır.

Sözsüz ki, Azərbaycanın inkişafı, əldə etdiyi uğurlar fonunda məhkəmə-hüquq sisteminin də təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində islahatlar aparılmaya bilməzdi.

Qeyd etməliyəm ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezidentimizin rəhbərliyi ilə inkişaf etdirilən köklü məhkəmə-hüquq islahatları aparılarkən Avropa Şurası ilə əməkdaşlıqda məhkəmə hakimiyyətinin müstəqilliyinin, şəffaflığının və əlçatanlığının təmin olunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı kompleks tədbirlər həyata keçirilmişdir. İlk növbədə, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, yeni məhkəmələr və məhkəmə təsisatları yaradılmışdır. Təsadüfi deyil ki, Artıq 12 ildir ki, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası səmərəli fəaliyyət göstərir və bu gün Şura daha geniş səlahiyyətlərə malikdir. Elə həmin müddətdən ölkəmizdə hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçim qaydaları tətbiq olunur və bu prosedurlara uyğun seçimi aparan Hakimlərin Seçki Komitəsi uğurla fəaliyyət göstərir. Eyni zamanda, Avropa Şurasının sənədləri, həmçinin BMT-nin Banqalor prinsipləri nəzərə alınaraq işlənib təsdiq olunmuş Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə hakimlərimiz tərəfindən riayət olunmasına xüsusi diqqət yetirilir. Hakimlik fəaliyyətinin etik prinsip və standartlarının toplusu olan bu Kodeks spesifik əxlaq və ədəb tələblərini, onların peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayır, peşə fəaliyyətinə münasibətini müəyyən edir.

Bununla yanaşı, Azərbaycanda yaradılmış və bir müddət əvvəl Hakimlərin İttifaqı kimi birləşmiş hakim assosiasiyaları fəaliyyət göstərir və bu assosiasiyalar məhkəmə sahəsində qanunvericilik islahatları prosesində fəal iştirak edir, təkliflərlə çıxış edir, həm hakimlər, həm də məhkəmə aparatı işçiləri üçün treninqlər keçirir, ictimai tədbirlər təşkil edirlər. Ümumi Məhkəmə Hakimləri Assosiasiyası həm də Beynəlxalq Hakimlər Assosiasiyasının tamhüquqlu üzvüdür.

Ümumiyyətlə, hakimlərin nəzəri bilik və peşəkarlığının artırılmasına xüsusi diqqət yetirilərək onların davamlı tədrisi yeni müasir metodika əsasında aparılır, öz həmkarları üçün treninq apara biləcək hakimlər formalaşır, həmçinin xarici dillərə, beynəlxalq təcrübəyə yiyələn hakimlərimizin sayı artır və bu gün artıq onlar konvensiyaları, Avropa Məhkəməsinin presedentlərini öyrənib uğurla tətbiq edirlər. Eyni zamanda, ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunaraq hazırda Yasamal Rayon Məhkəməsinin hakimi həm də Avropa

Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) vitse-prezidentidir. Bundan əlavə, dövlət başçısının təşəbbüsü ilə bir nəfər hakimimiz Strasburq Məhkəməsinə ezam olunmuş və bu təşəbbüs Avropa Məhkəməsinin sədri tərəfindən yüksək qiymətləndirilmiş, belə bir təcrübənin davam etdirilməsi barədə razılığa gəlinmişdir.

Bir cəhəti də qeyd edim ki, bu gün məhkəmələrin siması da dəyişir, infrastruktur yüksək statuslarına uyğun müasirləşdirilir. Artıq paytaxtda və müxtəlif bölgələrdə ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş müasir məhkəmə binaları və konseptual baxımdan yeni olan, dünyada nadir rast gəlinən məhkəmə kompleksləri tikilərək istifadəyə verilmişdir. Bu binaların böyük əksəriyyəti on ildən artıqdır səmərəli əməkdaşlıq etdiyimiz Dünya Bankı ilə birgə ədliyyə sisteminin müasirləşdirilməsinə dair layihələr çərçivəsində ərsəyə gəlmişdir. Təsadüfi deyil ki, Dünya Bankı bu layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirərək müasir məhkəmə infrastrukturunun yaradılması və vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsi sahəsində innovasiyalara görə nominasiyaların qalibi elan etmişdir.

Bu sahədə nailiyyətlərimiz artıq digər dövlətlərin də diqqətini cəlb edir və onlar mötəbər beynəlxalq qurumların tövsiyəsi ilə ölkəmizin müsbət təcrübəsindən bəhrələnirlər. Təkcə bu yaxınlarda Avropa Şurasının müraciəti əsasında nümayəndə heyətimiz Moldovaya səfər edərək məhkəmə infrastrukturunun yaradılması sahəsində müsbət təcrübəmizi oradakı həmkarlarımıza aşılamışlar. Eyni zamanda, Dünya Bankının tövsiyəsi ilə Rusiya Federasiyası Moskva Şəhər Məhkəməsinin sədri xanım Olqa Yeqorovanın başçılıq etdiyi rəhbər vəzifəli şəxslərdən ibarət geniş nümayəndə heyəti ölkəmizə səfər edərək məhkəmə sistemindəki yenilikləri, o cümlədən elektron məhkəmənin tətbiqi təcrübəsini öyrənmişdir.

Göründüyü kimi, aparılan islahatlar az deyil və bu proses bu gün də davam edir. Ölkə Prezidentinin cari ilin fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı da bu sahədə islahatların yeni məcrada həyata keçirilməsinə rəvac vermiş və bu mühüm sənədin icrası üzrə əhatəli tədbirlər həyata keçirilməkdədir.

**- Azər müəllim, dövlət başçısının qeyd olunan Sərəncamının icrası ilə bağlı görülən işlər barədə də bir qədər ətraflı məlumat verməyinizi istərdik.**

- Ulu öndər Heydər Əliyevin humanizm siyasətinə sadiq qalan möhtərəm Prezidentimiz tərəfindən hər il əfv sərəncamları imzalanır və deyə bilərik ki, artıq bu bir ənənəyə çevrilmşdir. Həmçinin Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 4 amnistiya qərarı cinayət törətmiş minlərlə insanın azadlığa qovuşmasına xidmət etmişdir.

Ölkə başçısının imzaladığı 2017-ci il 10 fevral tarixli Sərəncamı humanist siyasətin növbəti təzahürü olmaqla məhkəmə-hüquq islahatlarının yeni mərhələdə davamıdır.

Cəza siyasətini həyata keçirən dövlət orqanları üçün "yol xəritəsi" rolunu oynayan proqram xarakterli Sərəncamda üç əsas istiqamət müəyyən edilmişdir: cinayət və cinayət prosessual qanunvericiliyinin təkmilləşdirilməsi, cəmiyyətdən təcrid etmədən məhkumların islahını təmin edən institusional islahatların həyata keçirilməsi, penitensiar sahənin inkişafı ilə bağlı əlavə tədbirlərin görülməsi.

Qeyd edilməlidir ki, Sərəncamın qəbulundan dərhal sonra Ədliyyə Nazirliyi tərəfindən Ali Məhkəmə və Baş Prokurorluqla birgə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı qanunvericilik və məhkəmə-istintaq təcrübəsi əhatəli təhlil olunaraq Cinayət və Cinayət-Prosessual məcəllələrinə mühüm dəyişiklikləri nəzərdə tutan yeni qanun layihələri hazırlanmış və dövlət başçısına təqdim olunmuşdur. Ölkə Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Cinayət Məcəlləsinə artıq 300-ə yaxın dəyişiklik edilmişdir. Əminliklə deyə bilərik ki, Cinayət Məcəlləsinin qüvvəyə mindiyi 2000-ci ildən bu günədək ona bu qədər əhatəli və konseptual dəyişiklik edilməmişdir.

Xatırlatmaq istərdim ki, ötən ilin mayında da cinayət qanunvericiliyinə xeyli dəyişikliklər olunmuş və bu zaman cinayət tərkiblərinin bir çoxu dekriminallaşdırılmışdır. Daha əvvəl isə Cinayət Məcəlləsindən döymə norması çıxarılmışdır.

Hazırkı dəyişikliklərə gəldikdə isə, Məcəllədə 15 cinayət tərkibi dekriminallaşdırılmış, 3 maddə üzrə məsuliyyətin yaranmasına səbəb olan məbləğin

artırılması ilə bu əməllər cinayət kateqoriyasından inzibati xəta kateqoriyasına keçmişdir. Beləliklə, dekriminallaşma yalnız maddələrin ləğv edilməsi ilə deyil, həmçinin cinayət tərkibinin yaranması üçün tələb olunan ziyanın məbləğinin artırılması ilə həyata keçirilmişdir.

Bundan başqa, zərərçəkmiş şəxslə barışmaqla cinayət məsuliyyətindən azadetmə institutu təkmilləşdirilmiş, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azadetməni nəzərdə tutan yeni normalar müəyyən edilmişdir.

Qanuna əsasən azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması məqsədilə cəmiyyətdən təcridetmə ilə bağlı olmayan yeni cəza növü müəyyən edilmiş və 158 maddənin sanksiyasına alternativ cəzalar, o cümlədən yeni cəza növü olan azadlığın məhdudlaşdırılması əlavə edilmiş, 36 cinayətə görə isə azadlıqdan məhrumetmə cəzası yüngülləşdirilmişdir.

Narkomaniya xəstəliyinə düçar olmuş şəxslərə qarşı münasibət də humanistləşdirilərək əməlində başqa cinayət tərkibi olmayan belə şəxslərin bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq olunmaqla tam sağaldığı halda cinayət məsuliyyətindən azad olunması müəyyən edilmişdir.

Eyni zamanda, ictimai işlər cəzasının səmərəli tətbiqi məqsədilə qanunvericilik təkmilləşdirilmiş, ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınmasına yönələn tədbirlər çərçivəsində 2017-ci il 20 oktyabr tarixli Qanunla İnzibati Xətalar Məcəlləsinə ictimai işlər növündə cəzanın və ya inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən yeni norma əlavə olunmuşdur. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli Qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilmişdir.

Bundan başqa, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə dəyişikliklər hazırlanmış, bir çox düzəlişlərlə yanaşı, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin geniş tətbiqinə imkan verən elektron nəzarət vasitələri ilə bağlı müddəalar nəzərdə tutulmuşdur.

Sərəncamda verilmiş tapşırıq və tövsiyələrin icrası nəticəsində məhkəmələrin cəza siyasətində azadlıqdan məhrumetməyə, habelə həbs qətimkan tədbirinin seçilməsinə münasibət xeyli dəyişmiş, ötən müddət ərzində istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı 25 faizə qədər azalmış və bu gün də azalmaqda davam edir. Həmçinin həbsdən azad edilmiş insanların sayı xeyli artmışdır.

Qeyd olunan bütün bu innovativ dəyişikliklər artıq cəmiyyətimizdə alqışla qarşılanmış və ümid edirik ki, gələcəkdə bu dəyişikliklərin tətbiqində müsbət nəticələr əldə olunacaqdır.

Sərəncamın əsas yeniliklərindən biri də ölkəmiz üçün yeni olan Probasiya xidmətinin yaradılması, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı elektron nəzarət vasitələrinin tətbiq olunmasıdır. Bununla bağlı beynəlxalq təcrübə öyrənilərək, "elektron qolbağ"ın nümunələri pilot qaydada sınaqdan keçirilmiş və hazırda ölkəmiz üçün daha uyğun modelin müəyyən olunması üzrə işlər yekunlaşdırılır.

Möhtərəm Prezidentimizin cari il noyabrın 7-də imzaladığı "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərmana dəyişikliklərlə nazirliyin aparatında ayrıca baş idarə səlahiyyətli Probasiya xidmətinin yaradılması bu qurumun fəaliyyətinin səmərəli və mütəşəkkil qaydada təmin olunmasına imkan verəcəkdir.

Eyni zamanda, dövlət başçısının tapşırıqlarına uyğun olaraq penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, infrastrukturun müasirləşdirilməsi, xidmətin peşəkar kadr korpusunun formalaşdırılması diqqətdə saxlanılmış, cəzaçəkmə müəssisələrində məhkumların ictimai faydalı əməyə cəlb olunması, istehsal sahələrinin artırılması ilə bağlı əməli tədbirlər görülmüşdür.

Yekunda vurğulamaq istərdim ki, artıq Sərəncamın icrası üzrə görülən işlər öz müsbət nəticələrini verir və əminik ki, bu mühüm sənədlə qarşımızda duran hər bir konkret vəzifə cənab Prezidentin tapşırıqlarına uyğun olaraq qısa müddətdə öz həllini tapacaqdır.

# Azərbaycan ədliyyəsində islahatların müasir mərhələsi

*Əsrə bərabər şərəfli, eyni zamanda keşməkeşli tarixi inkişaf yolu keçən Ədliyyə Nazirliyi özünün yeni müasir tərəqqi dövrünü yaşayır. Artıq 18 ildir ki, ədliyyə işçiləri peşə bayramlarını geniş qeyd edirlər. Bu münasibətlə **respublikamızın ədliyyə nazirinin müavini Məhərrəm Əliyev** müxbirimizin suallarını cavablandırmışdır.*

**- Hörmətli Məhərrəm müəllim, əvvəla Sizi peşə bayramınız münasibətilə təbrik edirik. Uzun müddət mühüm məsul vəzifələrdə çalışmaqla Siz hər zaman dövlətçiliyə sədaqətlə xidmət edərək, qanunun aliliyinin, insan hüquqlarının qorunması naminə səmərəli fəaliyyət göstərmisiniz. Ədliyyə nazirinin müavini kimi hazırkı fəaliyyətiniz barədə fikirlərinizi öyrənmək istərdik.**

- Çox sağ olun. Ümummilli lider Heydər Əliyev deyirdi ki, "hüquq-mühafizə orqanlarında işləyən hər bir kəs, yaxud işləmək istəyən hər bir vətəndaş bilməlidir ki, ondan birinci növbədə müstəqil Azərbaycan dövlətinə sədaqət tələb olunur." Bu prinsiplər fəaliyyət göstərdiyim bütün dövrlərdə əsas meyar olmuş, qanunun aliliyinin, əmin-amanlığın qorunması, insan hüquqlarının etibarlı təmin olunması ümdə vəzifə kimi qarşımızda durmuşdur. Ulu Öndərimizin və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yüksək etimadı sayəsində istər daxili işlər orqanlarında çalışdığım mühüm məsul vəzifələrdə, istərsə də ölkəmizin Tacikistanda səfiri olduğum müddətdə müstəqilliyimizin möhkəmləndirilməsi, hər cür təhdidlərin qarşısının alınması, milli maraqlarımızın qorunması naminə davamlı və məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Bilirsiniz ki, sonrakı dövrlərdə Prezident Administrasiyasında müdafiə məsələləri ilə bağlı fəaliyyətimi davam etdirmişəm. Artıq cari ilin iyunundan ölkə Prezidentinin Sərəncamı ilə ədliyyə nazirinin müavini vəzifəsinə təyin olunmaqla bu



mühüm vəzifədə fəaliyyət göstərirəm.

Qeyd etməliyəm ki, dövlətin hüquq siyasətinin həyata keçirilməsində Ədliyyə Nazirliyi mühüm rol oynayır və bu gün geniş səlahiyyətlərə malik olan nazirlik çoxşaxəli fəaliyyət istiqamətlərinə uyğun olaraq ölkəmizdə qanunyaradıcı fəaliyyətdə aktiv iştirak edir, vətəndaş cəmiyyətinin inkişafına töhfələr verir, əhalinin mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həllinə kömək edir, müxtəlif reyestrləri aparır. Ədliyyə fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması, o cümlədən insan haqlarının etibarlı qorunması, əhaliyə göstərilən hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə dövlət başçısının tapşırıqlarına uyğun olaraq ardıcıl tədbirlər həyata keçirilir.

Sözsüz ki, Ədliyyə Nazirliyinin təkmil bir struktur kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ədliyyə sisteminin inkişafına qayğı ilə yanaşmış, bu sahədə mütərəqqi islahatlar aparılmışdır. 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü də məhz Ümummilli Liderin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilmişdir. Bu da təsadüfi deyil. Çünki bir əsrə bərabər zəngin və keşməkeşli tarixi olan Azərbaycan ədliyyəsi 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə eyni gündə təsis olunmuş və həmin il noyabrın 22-də Ədliyyə

Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Ölkəmizin hüquq sisteminin inkişafında əvəzsiz xidmətlər göstərən Azərbaycan ədliyyəsi bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı ilə daha da müasirləşir və inkişaf edir, cəmiyyətdə nüfuzu günbəgün yüksəlir.

Son illər ölkə başçısının rəhbərliyi ilə ədliyyə sistemində uğurlu islahatlar aparılaraq mühüm nailiyyətlər əldə olunur və bu da bizi səfərbər edir ki, ədliyyə fəaliyyətinə layiqli töhfələr verək.

**- Qeyd etdiyiniz kimi, Ədliyyə Nazirliyinin fəaliyyəti istiqamətləri çoxşaxəlidir. Sizin məsul olduğunuz sahələr barədə nə deyə bilərsiniz?**

- Ədliyyə nazirinin əmri ilə nazirlik üzrə bir çox mühüm sahələr həvalə olunmuşdur. Onlardan biri insan hüquqları, ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətlə bağlıdır.

Qeyd etməliyəm ki, insan hüquqlarının təminatı məsələsi hər bir dövlətin ən ümdə vəzifəsi olmaqla onun fəaliyyətinin əsas prioritetini təşkil edir. 1995-ci ildə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlətimizin ali məqsədlərindən biri kimi məhz insan haqlarının qorunması təsbit edilmiş, Konstitusiyanın maddələrinin üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmişdir.

İnsan hüquq və azadlıqlarına verilən böyük əhəmiyyətin təzahürü olaraq Ulu Öndər tərəfindən 1998-ci ildə xüsusi Fərman və onun əsasında insan hüquqlarının müdafiəsi sahəsində fundamental sənəd olan Dövlət Proqramı, daha sonra bu mühüm sənədin fəlsəfəsi inkişaf etdirilərək möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən 2006-cı və 2011-ci illərdə insan hüquqlarının müdafiəsinə dair milli fəaliyyət proqramları qəbul olunmuşdur.

İnsan hüquq və azadlıqlarının etibarlı təmin olunmasında respublikamızda bir çox əhəmiyyətli tədbirlərin həyata keçirildiyi şəraitdə Ədliyyə Nazirliyinin də qarşısında bu sahədə mühüm vəzifələr dayandığından 2000-ci ildə nazirliyin tərkibində İnsan hüquqları üzrə şöbə, daha sonra nazirliyin yeni Əsasnaməsi ilə strukturu təkmilləşdirilərək İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi yaradılmışdır.

Bildirməliyəm ki, nazirlik tərəfindən bu sahədə mühüm fəaliyyət göstərilərək ölkəmizin insan hüquqlarına dair beynəlxalq konvension öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı hesabatların hazırlanmasında fəal iştirak edilir, şəffaflığa, ictimai iştirakçılığa xüsusi önəm verilərək, vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət hüquq-müdafiə təşkilatları ilə səmərəli əməkdaşlıq edilir. Artıq 11 ildir ki, ədliyyə naziri yanında İctimai Komitə uğurla fəaliyyət göstərir. Yeri gəlmişkən, ədliyyə fəaliyyətinə geniş cəlb olunan İctimai Komitənin bu günlərdə yeni tərkibdə ilk iclası keçirilmişdir.

Eyni zamanda, açıq hökumət prinsiplərinin geniş tətbiqinə xüsusi önəm verilərək, əhalinin hüquqi maarifləndirilməsi məqsədilə nazirliyin interaktiv rejimdə internet saytlarının fəaliyyəti təmin olunur, mətbu nəşrlər, illik toplular dərc olunur, əhaliyə müxtəlif elektron xidmətlər göstərilir.

Bütün bunlar onu göstərir ki, insan hüquq və azadlıqlarının təminatı məsələsi Azərbaycan dövlətinin siyasi iradəsinin, bu sahəyə həssas münasibətinin təzahürüdür.

Bununla yanaşı, Ədliyyə Nazirliyinin səlahiyyətlərinə aid edilmiş mühüm sahələrdən biri də məhkəmə ekspertizalarının aparılmasıdır. Ölkədə bütün növ (qeyri-tibb) məhkəmə ekspertizalarını həyata keçirən və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə töhfələr verən Məhkəmə ekspertizası Mərkəzində elmi nailiyyətlər müasir texnologiyalar tətbiq olunur ki, bu da ekspertiza tədqiqatlarının dairəsini genişləndirərək, onların operativ, dolğun və dəqiq aparılmasını və rəylərin mötəbərliyini təmin edir, bununla da cinayətkarlıqla mübarizə işinə dəyərli töhfə verilir.

Ekspertiza tədqiqatının çoxfunksionallığı və onların qısa müddətdə hərtərəfli aparılması xarici ölkələrin də diqqətini cəlb edir və onlar ölkəmizin bu sahədə nailiyyətindən bəhrələnmək üçün müraciətlər edirlər. Xüsusi qeyd olunmalıdır ki, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, tədqiqat metodikalarının standartlaşdırılması, həmçinin ekspertiza rəylərinin beynəlxalq aləmdə tanınması məqsədi ilə Azərbaycan Məhkəmə Ekspertizası Mərkəzi 2011-ci ildə Avropa Məhkəmə Ekspertizası İnstitutları Şəbəkəsinin (ENFSI) üzvlüyünə qəbul

edilmiş, bir çox ekspertiza növləri beynəlxalq standartlara cavab verərək müvafiq sertifikata layiq bilinmişdir.

Eyni zamanda, ekspert araşdırmalarının operativliyinin təmin edilməsi, ibtidai araşdırmanın və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi məqsədi ilə Ekspertiza Mərkəzinin Gəncə, Şirvan və Şəkidə filialları yaradılmışdır.

Nazirlik həmçinin, müxtəlif reyestrləri, o cümlədən əhalinin dövlət reyestrini aparır. Bu olduqca mühüm bir fəaliyyət sahəsidir. Burada ölkə vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində dövlət informasiya ehtiyatı yaradılmışdır. Təsadüfi deyil ki, bu işin arxasında gərgin zəhmət durur. Ötən dövrdə bu reyestrin formalaşdırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilmiş layihə çərçivəsində "Əhalinin Dövlət Reyestri" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi yaradılmış və 75 il ərzində vətəndaşlıq vəziyyətini müəyyən edən 15 milyondan çox akt qeydi bir neçə il çəkən nəhəng iş sayəsində elektron formata keçirilmişdir.

Bu sahədə fəaliyyətin daha səmərəli həyata keçirilməsi və müasir iş şəraitinin yaradılması məqsədilə infrastruktur yaxşılaşdırılmış, 2009-cu ildə dövlət başçısının iştirakı ilə Əhalinin Dövlət Reyestri Xidməti üçün müasir bina inşa olunaraq istifadəyə verilmişdir.

Ötən ilin noyabrında ölkə Prezidenti tərəfindən ədliyyə fəaliyyəti ilə bağlı qanunvericiliyə mühüm dəyişikliklər edilərək informasiya texnologiyalarının tətbiqinin mərkəzləşdirilmiş və mütəşəkkil qaydada aparılması məqsədilə nazirliyin aparatında ayrıca İKT idarəsinin yaradılmasını xüsusi qeyd etmək istərdim.

Bu gün dövlət strukturları və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini informasiya texnologiyalarsız təsəvvür etmək mümkün deyil.

Sözsüz ki, ölkəmizdə İKT sahəsində həyata keçirilən kompleks tədbirlər ədliyyə orqanlarını və məhkəmələri də əhatə etmişdir. Bu sahədə müasir informasiya texnologiyalarının tətbiqinin və elektron xidmətlərin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Nazirlik tərəfindən 10 reyestr və məlumat sistemlərinin aparılması təmin olunur, əhalinin daim yeniləşən qanunvericilik aktlarının mətni ilə birbaşa, sərbəst və təmənnasız tanış olması, hüquqi biliklərinin artırılması məqsədilə milli qanunvericiliyin elektron məlumat bazaları www.e-qanun.az və www.huquqiaktlar.gov.az interaktiv rejimdə fəaliyyət göstərir və sistematik yeniləşdirilir.

Eyni zamanda, "Qeyri-kommersiya hüquqi şəxsləri" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi yaradılmış və qeydiyyata alınmış bütün qeyri-kommersiya hüquqi şəxsləri və onların fəaliyyəti barədə məlumatlar informasiya resursuna daxil edilmişdir.

Dövlət başçısının "Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 20 noyabr 2013-cü il tarixli Fərmanına uyğun olaraq nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış təşkilatlar üçün "Fərdi elektron pəncərə" elektron məlumat sistemi yaradılmışdır.

Həmçinin, vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının asanlaşdırılması məqsədilə "Vətəndaşlıq vəziyyəti aktları", "Elektron notariat" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemləri qurularaq, notariat kontorları və qeydiyyat orqanları vahid elektron şəbəkədə birləşdirilmişdir.

Bununla yanaşı, məhkəmə islahatlarında mühüm mərhələ olan "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə önəmli işlər görülür. Artıq yeni inşa olunmuş müasir məhkəmə binalarında bir çox komponentləri tətbiq olunan bu sistem ilin sonunadək bütün məhkəmələrin 60 faizini əhatə edəcəkdir ki, bu da ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərməklə insanlara daha əlverişli və rahat şərait yaradacaqdır.

Təbiidir ki, bu gün ədliyyə və məhkəmə fəaliyyətində müasir texnoloji yeniliklərin geniş tətbiqi üzrə həyata keçirilən tədbirlər son illər aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatlarının tərkib hissəsini təşkil edir.

- **Məhərrəm müəllim, bu islahatlarda yeni mərhələ olan dövlət başçısının cari ilin fevralın**

**10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının icrası üzrə görülən işlər barədə də məlumat verməyinizi istərdik.**

- İlk növbədə qeyd etməliyəm ki, bu mühüm və proqram xarakterli Sərəncam dövlət başçısının humanist siyasətinin növbəti təzahürü olmaqla insan haqlarının, o cümlədən azadlıq hüququnun qorunmasına, ölkədə cəza siyasətinin humanistləşdirilməsinə, cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edir.

Sərəncamın icrası ilə bağlı nazirlik tərəfindən ötən dövrdə bir çox mühüm tədbirlər görülmüş, aidiyyəti qurumlarla birgə işçi qrupu yaradılaraq cinayət və digər qanunvericiliyə mühüm dəyişikliklərlə bağlı yeni qanun layihələri hazırlanmış və Cinayət və İnzibati Xətalar məcəllələrinə dəyişikliklər edilmişdir.

Hələ vaxtilə 2000-ci ildə əvvəlki hüquq sistemindən fərqli olaraq ölkəmizin müasir hüquq sisteminin fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktlarının qəbul edilməsi o dövrdə mütərəqqi addım olmuş, hazırda isə bu Sərəncam hüquqi sahədə islahatların keyfiyyətcə yeni mərhələdə davam olunmasını şərtləndirmişdir.

Ölkə Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Cinayət Məcəlləsinə bir sıra əməllərin dekriminallaşdırılması, azadlıqdan məhrumetmə cəzasının hədlərinin azaldılması, azadlığın məhdudlaşdırılması yeni alternativ cəza növünün daxil edilməsi, zərərçəkmiş şəxslə barışma institutunun təkmilləşdirilməsi, həmçinin həbsə alternativ qətimkan tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı 300-ə yaxın mühüm dəyişiklik edilmişdir.

Eyni zamanda, Sərəncamla ölkəmiz üçün yeni olan Probasiya xidməti təsbit olunmuş, bununla bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, fəaliyyətinin təmin olunması üzrə mühüm işlər görülmüşdür.

Möhtərəm Prezidentimizin 2017-ci il 7 noyabr tarixli Fərmanı ilə nazirliyin aparatında ayrıca baş idarə səlahiyyətli Probasiya xidmətinin yaradılması bu sahədə işin səmərəli və mütəşəkkil qaydada təşkilinə xidmət etmişdir.

Bununla yanaşı, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmiş, "elektron qolbağ"ın nümunələri pilot qaydada sınaqdan keçirilmişdir.

**- Ədliyyə işçilərinin builki peşə bayramını ilk dəfə olaraq qeyd edirsiniz. Son olaraq nələri əlavə etmək istərdiniz?**

- Sözsüz ki, belə bir xoş gündə Azərbaycan ədliyyəsinin inkişafı, həyata keçirilən islahatlar və yeniliklər barədə çox danışmaq olar. Ədliyyə sistemində qazanılan nailiyyətlər möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə aparılan çoxşaxəli islahatların real təzahürüdür.

Danılmaz faktdır ki, bu gün Azərbaycan dövlətimizin başçısının siyasi iradəsi ilə günbəgün inkişaf edir və möhkəmlənir, dünyada mühüm və etibarlı tərəfdaş, müstəqil dövlət kimi tanınır və qəbul edilir. Qlobal enerji layihələrinin təşəbbüskarı olaraq regionda əvəzsiz rola malikdir. Cari ildə "Əsrin kontraktı" neft müqaviləsinin uzadılması ilə bağlı yeni Sazişin imzalanması, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi respublikamızın gələcək inkişafını təmin etməklə regionda sülhə və sabitliyə töhfə olmuşdur.

Dövlət başçısının rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqiyə dəstək verən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə vətəndaşların mənafelərinə hesablanmış bir çox mühüm layihələr müvəffəqiyyətlə həyata keçirilir, humanizm, multikulturalizm və tolerantlıq ideyaları inkişaf etdirilir, ölkəmiz ideal məkan kimi qəbul olunaraq mötəbər beynəlxalq forumlara, idman yarışlarına uğurla ev sahibliyi edir.

Bütün bunlar xalqımızda yüksək iftixar hiss yaşadır və dövlət başçısının ətrafında sıx birləşən ədliyyə işçilərini Azərbaycan ədliyyəsinin inkişafı naminə daha əzmkarlıqla və məsuliyyətlə çalışmağa sövq edir.

Fürsətdən istifadə edərək, bütün ədliyyə işçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edir, gərəkli fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıram.

# Azərbaycan ədliyyəsinin 99-cu ildönümü bölgələrdə də qeyd olunub




Gəncədə regional ədliyyə idarəsi tərəfindən təşkil olunan tədbirdə ədliyyə işçiləri əvvəlcə şəhərin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər. Sonra Mərkəzi Qan Bankında talassemiya və hemofiliyalı xəstələrə yardım məqsədilə könüllü qan veriblər.

Bayram münasibətilə ədliyyə və məhkəmə qurumlarında keçirilmiş yığıncaqlarda Azərbaycan ədliyyəsinin keçdiyi tarixi yola və inkişaf mərhələlərinə nəzər salınıb, ədliyyə sistemində aparılan islahatlar və qazanılan nailiyyətlər barədə geniş çıxışlar edilib.




Sumqayıt şəhərində fəaliyyət göstərən məhkəmələrin, ədliyyə orqanlarının kollektivlərinin, Şəhər İcra Hakimiyyətinin nümayəndələrinin iştirakı ilə Heydər Əliyev Mərkəzində keçirilən bayram tədbirində Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bektaşi Ulu Öndərin Azərbaycan ədliyyəsinə qayğısından bəhs edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin inkişafı üzrə görülən işlərdən danışıb. O, Azərbaycanda vüsət alan mütərəqqi islahatların və əldə edilmiş nailiyyətlərin örnək kimi qəbul edildiyini bildirib, ölkəmizin məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olduğunu diqqətə çatdırıb.

Digər çıxış edənlər Azərbaycan ədliyyəsinin inkişafı üzrə aparılan islahatların prioritetlərindən söz açıb, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyətinin artdığını vurğulayıblar.




Şəkidə ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş tədbirlər ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etməklə başlayıb. Sonra Şəki regional ədliyyə idarəsində ədliyyə orqanları əməkdaşlarının və hakimlərin iştirakı ilə keçirilmiş görüşdə Azərbaycan ədliyyəsinin tarixinə, keçdiyi inkişaf yoluna nəzər salınıb, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində həyata keçirilən islahatlar, onların real nəticələrinin mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilərək nümunə kimi təqdim olunması qeyd olunub.

Çıxış edənlər ədliyyə fəaliyyətinin səmərəliliyinin artırılması, qanunun aliliyinin və insan hüquq və azadlıqlarının etibarlı qorunması, vətəndaş məmnunluğunun təmin olunması üçün üzərlərinə düşən vəzifələrin bundan sonra da layiqincə icrası istiqamətində səfərbər olacaqlarını bildiriblər.




Ədliyyə işçilərinin peşə bayramı günü İsmayıllıda da qeyd olunub. Ədliyyə işçiləri, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Rayon icra hakimiyyətinin konfrans zalında keçirilən yığıncaqda icra başçısı Mirdaməd Sadıqov ədliyyə işçilərini təbrik edib, onlara çətin və şərəfli peşələrində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən rayon məhkəməsinin hakimi Rəfail Şirinov ədliyyə orqanlarının inkişaf tarixindən, bu günündən, ümummilli lider Heydər Əliyevin ədliyyə sistemində apardığı köklü islahatların uğurlu nəticələrindən, ölkədə qanunçuluğun möh-

kəmləndirilməsində Prezident İlham Əliyevin həyata keçirdiyi səmərəli tədbirlərdən ətraflı danışıb.

Digər çıxış edənlər Azərbaycan ədliyyəsinin inkişafı üzrə qazanılan nailiyyətlərdən söz açıblar.

Sonda fərqlənən ədliyyə işçilərinə rayon icra hakimiyyətinin fəxri fərmanları verilib.




Cəlilabad şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə iştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad edib, Mərkəzdə Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Tədbirdə çıxış edən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov rayonun ədliyyə işçilərini əlamətdar gün münasibətilə təbrik edib. Qeyd olunub ki, Ulu Öndərin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf edən Ədliyyə Nazirliyi Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atır.

Tədbirdə çıxış edən Cəlilabad Rayon Məhkəməsinin sədri Vüsal Cəbrayılov əsrə yaxın şanlı tarixi olan Azərbaycan ədliyyəsinin ötən dövrdəki inkişaf yolundan, ədliyyə və məhkəmə sistemində aparılan uğurlu islahatlardan danışıb.




Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində ədliyyə işçilərinin, rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən bayram tədbirində rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxış edərək, peşə bayramı münasibətilə ədliyyə işçilərini təbrik edib.

O, eləcə də digər çıxış edənlər Ədliyyə Nazirliyinin bir struktur kimi formalaşması və inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən danışıblar. Vurğulanıb ki, ölkəmizin hüquq sisteminin inkişafında mühüm rol oynayan Azərbaycan ədliyyəsi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə daha da inkişaf edir.




Daşkəsən rayonunda Ədliyyə işçilərinin peşə bayramı münasibətilə təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, məhkəmə işçiləri, ədliyyə qulluqçuları, ziyalılar və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Rayonun Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ə.Abıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, zəngin ənənələrə malik Azərbaycanın ədliyyə orqanlarında da əsaslı islahatlar aparıldığını, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Ədliyyə Nazirliyinin öz inkişafının müasir mərhələsinə qədəm qoyduğunu, ədliyyə və məhkəmə infrastrukturunun əhəmiyyətli dərəcədə yeniləşdirildiyini vurğulayıb.

Sonra Daşkəsən Rayon Məhkəməsinin sədri Azad Əliyev çıxış edərək bildirib ki, məhkəmə hakimiyyətinin yüksək statusu nəzərə alınaraq məhkəmə infrastrukturunun müasirləşdirilməsi və elektronlaşdırılması istiqamətində son illər böyük işlər görülüb. Ədliyyə işçiləri öz vəzifələrini layiqincə yerinə yetirmək, Prezidentin ətrafında sıx birləşərək demokratik-hüquqi dövlət quruculuğu, Azərbaycan ədliyyəsinin davamlı inkişafı üçün bundan sonra da fədakarlıqla çalışmaq əzmindədirlər.




Ədliyyə işçilərinin peşə bayramı günü Tovuz rayonunda da qeyd olunub. Tovuz Rayon Məhkəməsinin, qeydiyyat şöbəsinin və notariat kontorunun kollektivləri əvvəlcə ümummilli lider Heydər Əliyevin xati-

rəsini ehtiramla yad edib, abidəsi önünə əklil və gül dəstələri qoyublar.

Əlamətdar günə həsr olunan tədbirdə rayon məhkəməsinin sədri Qafil Baxşıyev peşə bayramı münasibətilə ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edib.

Çıxışlarda Azərbaycanın ədliyyə və məhkəmə sisteminin tarixindən, ölkədə həyata keçirilən uğurlu məhkəmə-hüquq islahatlarından danışılıb, bu sahəyə göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq ifadə olunub.

Sonra tədbir iştirakçıları Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzini ziyarət edib, Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən eksponatlara və fotoşəkillərə baxıblar.




Şəmkir rayonunda da peşə bayramı münasibətilə keçirilən tədbirdə Azərbaycan ədliyyəsinin tarixindən və son illər aparılan islahatlardan danışılıb. Rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, rayon məhkəməsinin sədri Könül Məmmədov və başqaları ədliyyə işçilərini peşə bayramı münasibətilə təbrik ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizin davamlı tərəqqisi, sabitliyi və təhlükəsizliyi təmin olunur, ədliyyə və məhkəmə sistemində uğurlu islahatlar aparılır.




Qazax rayonunda ədliyyə işçilərinin peşə bayramı ilə bağlı keçirilən tədbir ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etməklə başlayıb. Sonra Qazax Rayon Məhkəməsində keçirilən yığıncaqda İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov kollektivi peşə bayramı münasibətilə təbrik edərək ən xoş arzularını bildirib. Qeyd edib ki, gələn il 100 illiyini qeyd edəcək Azərbaycan ədliyyəsi bu müddət ərzində uzun və şərəfli bir yol qət edib.

Qazax rayon Məhkəməsinin hakimi Ağarza Səmədov çıxış edərək Azərbaycan ədliyyəsinin ulu öndər Heydər Əliyevin qayğısı ilə təkmil bir struktura çevrildiyini, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə orqanlarının fəaliyyətinin günbəgün müasirləşdiyini, yeni-yeni nailiyyətlərə imza atdığını vurğulayıb.




Tərtər Hərbi Məhkəməsində ədliyyə işçilərinin peşə bayramı münasibətilə keçirilmiş tədbirdə ədliyyə və məhkəmə orqanlarının işçilərini təbrik edən Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Azərbaycan ədliyyəsinin şanlı tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan, Prezident İlham Əliyevin tapşırıqları ilə aparılan ədliyyə və məhkəmə islahatlarından danışıb.

Sonda bir qrup ədliyyə işçisinə Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələr təqdim olunub.




Göyçay rayonunda keçirilən bayram tədbirində icra strukturları və hüquq-mühafizə orqanlarının rəhbərləri, Göyçay rayon məhkəməsinin hakimləri, məhkəmə aparatının işçiləri, rayonda fəaliyyət göstərən icra, qeydiyyat şöbələrinin, notariat kontorlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bu əlamətdar gün münasibətilə təbriklərini çatdıran Göyçay rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə Azərbaycanda ədliyyə orqanlarının yaranması tarixinə ətraflı nəzər salaraq ədliyyə sisteminin zəngin tarixindən, ölkəmizin yenidən dövlət müstəqilliyi əldə etdikdən və ümummilli lider Heydər Əliyevin

respublika rəhbərliyinə qayıdışından sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulmasından danışıb.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin təkmilləşdirilməsi üzrə məqsədyönlü islahatların aparıldığını vurğulayıb.

Göyçay Məhkəməsinin sədri Zəfər Quliyev və digər çıxış edənlər Azərbaycan ədliyyəsinin dinamik inkişafından, ədliyyə sisteminin cəmiyyətdə yüksək nüfuza malik olmasından danışıblar. Məhkəmə-hüquq sahəsində aparılan islahatlar nəticəsində ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini vurğulayaraq, ədliyyə işçilərinə fəaliyyətlərində uğurlar arzulayıblar.

Mədəni proqramla davam edən tədbirdə yerli mədəniyyət işçilərinin ifaları dinlənilib. Yekunda bir qrup ədliyyə işçisinə Göyçay rayon icra hakimiyyəti tərəfindən fəxri fərman, təşəkkürnamə və xatirə hədiyyələri təqdim olunub.




Ədliyyə işçilərinin peşə bayramı günü Goranboy rayonunda da qeyd olunub. Tədbirdə İcra Hakimiyyətinin bir sıra məsul işçiləri, ədliyyə orqanlarının əməkdaşları, idarə, müəssisə rəhbərləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Goranboy rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev ədliyyə işçilərini bayram münasibətilə təbrik edib, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirib ki, Ulu Öndər Heydər Əliyev həmişə ədliyyə orqanlarının inkişafını diqqətdə saxlayıb, bu diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının son illər ədliyyə orqanlarının cəmiyyətdəki rolunun gücləndirilməsinə hüquqi imkanlar yaradan fərman və sərəncamları bunu bir daha təsdiq edir. Ölkəmizin ədliyyə orqanlarının işçiləri öz vəzifə borclarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətçiliyimizin qorunmasında həmişə prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, insan hüquq və azadlıqlarının təmin edilməsində barışmaz mövqe tutur.

Çıxışlarda ədliyyə işçilərinin bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə əminlik ifadə olunub.

Yekunda bir qrup ədliyyə işçiləri Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif edilib.




Şirvan regional ədliyyə idarəsində keçirilmiş bayram tədbirində Apellyasiya Məhkəməsinin sədri Rəşadət Ağayev giriş sözü ilə çıxış edərək ulu öndər Heydər Əliyevin ədliyyə və məhkəmə orqanlarının inkişafında müstəsna xidmətlərini xatırladıb, bu sahəyə daim diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatlarının uğurlarından bəhs edib, ölkəmizin nailiyyətlərinin beynəlxalq aləmdə təqdir edildiyini vurğulayıb.

Məhkəmənin sədri və daha sonra çıxış edən hakimlər, regional idarənin və yerli ədliyyə qurumlarının rəhbərləri iştirakçıları ədliyyə işçilərinin peşə bayramı münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonda ədliyyə işçiləri, hakimlər və məhkəmə aparatı işçiləri, ümumilikdə 100-dən çox əməkdaş Şirvan şəhər Mərkəzi Xəstəxanasında könüllü qanvermə aksiyasında iştirak ediblər.

# Ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş tədbirlər

## ◆ Oftalmoloji aksiya

**Respublikamızda əhalinin sağlamlığının qorunması məqsədilə kütləvi pulsuz tibbi müayinə aksiyaları, insanlara keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsi üzrə məqsədyönlü tədbirlər təşkil olunur.**







Ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən Ədliyyə Nazirliyində oftalmoloji aksiya keçirilib.

Nazirliyin 200-ə yaxın əməkdaşının könüllü olaraq fəal iştirak etdiyi tədbirdə Mərkəzin müasir diaqnostik avadanlıqla təchiz olunmuş səyyar klinikasında ədliyyə işçiləri arasında göz xəstəliklərini vaxtında aşkar etmək və tibbi yardım göstərmək məqsədilə müayinələr aparılıb, zəruri tibbi məsləhətlər verilib.

## ◆ İdman turnirləri



**Ədliyyə Nazirliyi tərəfindən nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə birgə 20 oktyabr - 18 noyabr tarixlərində peşə bayramına həsr olunmuş futzal turniri keçirilib.**

Turnirdə nazirliyin müxtəlif qurumlarını, məhkəmə aparatlarını və hakim korpusunu təmsil edən 8 komanda iştirak edib.

Bakı Tennis Akademiyasında keçirilmiş turnirin oyunlarını futzal veteranları, o cümlədən keçmiş SSRİ və Azərbaycanın yığma komandalarının sabiq üzvləri, yarım final, 3-cü yer və final oyunlarını isə peşəkar FİFA dərəcəli hakimlər idarə ediblər.

Noyabrın 18-də keçirilmiş final oyununda "Məhkəmə aparatı işçiləri" və "Tibb xidməti" komandaları qarşılaşıb, 300-dək azarkeşin izlədiyi oyunda penalti zərbələri ilə "Tibb xidməti" komandası qələbə qazanaraq turnirin qalibi elan olunub və ona təntənəli surətdə kubok təqdim edilib.

Sonda turnirin ən yaxşı oyunçularına və ilk yerləri tutan komandalara fərqlənmə diplomları və medallar verilib.

***

**Peşə bayramı münasibətilə, həmçinin şahmat turniri keçirilib.**



6-17 noyabr tarixlərində nazirliyin aparatında təşkil edilmiş turnirdə müxtəlif struktur qurumları təmsil edən 15 əməkdaş iştirak edib. Yarışın nəticələrinə əsasən Bələdiyyələrlə iş mərkəzinin əməkdaşı Seymur Nağıyev 1-ci, Tibb baş idarəsinin əməkdaşı Fərman Fərmanov 2-ci və Məhkəmə ekspertizası mərkəzinin əməkdaşı Tamerlan Bağırov 3-cü yeri tutub. Qaliblərə diplomlar və mükafatlar təqdim edilib.

Belə tədbirlərin keçirilməsində məqsəd əməkdaşların asudə vaxtlarının səmərəli təşkili, zehni inkişafın və sağlam həyat tərzinin təbliğidir.

# Dünya Bankı ilə birgə ədliyyə sahəsində layihələr uğurla həyata keçirilir





**Son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən islahatlar aparılır, ədalət mühakiməsinə çatımlılıq, vətəndaşların məhkəmələrə müraciət imkanları asanlaşdırılır, məhkəmə infrastrukturunun yüksək statusuna uyğun müasirləşdirilməsi və "elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə ardıcıl tədbirlər görülür.**



Aparılan islahatlar beynəlxalq qurumlar tərəfindən təqdir olunur. Bu yaxınlarda məhkəmə sistemindəki nailiyyətlərinə görə ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub. Dünya Bankı ölkəmizdə ədliyyə sahəsində həyata keçirdiyi layihəni ən uğurlu kimi qiymətləndirərək müasir məhkəmə infrastrukturunun yaradılması və vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsi sahəsində innovasiyalara görə nominasiyaların qalibi elan edib.

Eyni zamanda Azərbaycanın müsbət təcrübəsinə maraq artır, təkcə ötən bir ayda Moskva Şəhər Məhkəməsi sədrinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti Azərbaycanda səfərdə olaraq məhkəmə sahəsindəki nailiyyətlərlə tanış olub, habelə mütəxəssislərimiz Moldovaya dəvət edilərək müsbət təcrübəmizi həmkarlarına aşılayıblar.

Noyabrın 24-də Dünya Bankının təşəbbüsü ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni müasir binasında ədliyyə sahəsində birgə həyata keçirilən layihələrin icrası, xüsusilə dövlət başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə görülən işlərə və əldə olunmuş nəticələrə dair geniş təqdimat keçirilib.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov, maliyyə naziri Samir Şərifov, iqtisadiyyat naziri Şahin Mustafayev, Nazirlər Kabinetinin və qeyd olunan nazirliklərin məsul rəhbər şəxsləri, Dünya Bankının ölkə üzrə meneceri Naveed Naqvi və Ofisin nümayəndələri iştirak ediblər.

Təqdimat zamanı birgə fəaliyyət çərçivəsində 30-dək yeni məhkəmə binasının layihələndirildiyi, paytaxtda və bölgələrdə 12 məhkəmə üçün qabaqcıl İKT ilə təchiz olunmuş müasir binaların və komplekslərin tikilərək istifadəyə verildiyi, daha 5 məhkəmə üçün belə binaların inşasının aparıldığı bildirilib, bir çox məhkəmə kompleks və binalarının, o cümlədən Nərimanov Rayon Məhkəməsinin yeni binasının açılışında dövlət başçısının şəxsən iştirak etdiyi vurğulanıb.

Eyni zamanda "elektron məhkəmə" informasiya sistemi barədə müfəssəl məlumat verilib, sistemə əyani şəkildə daxil olmaqla onun imkanları nümayiş etdirilib, o cümlədən ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində, işlərə daha operativ və keyfiyyətli baxılmasında, vaxta və xərclərə qənaət edilməsində, vətəndaşlara daha əlverişli və rahat şəraitin yaradılmasında rolu və əhəmiyyəti qeyd olunub.

Bildirilib ki, məhkəmə sisteminin vahid internet portalı zənginləşdirilib, burada elektron "şəxsi kabinet" yaradılıb ki, bununla da fiziki və hüquqi şəxslər, həmçinin vəkillər "ASAN İmza" ilə kabinetə daxil olaraq iştirak etdikləri məhkəmə prosesləri ilə bağlı hərtərəfli məlumat almaq, elektron qaydada iddia ərizələri vermək imkanı əldə ediblər. Eyni zamanda, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi, proseslərinin audio-video qeydə alınması, elektron sənəd dövriyyəsi təmin olunub və elektron icranın tətbiqinə başlanılıb. İlin sonunadək elektron məhkəmə sistemi ilə ölkə məhkəmələrinin 60 faizinin əhatə edilməsi nəzərdə tutulur.

Dünya Bankının ölkə üzrə meneceri layihə çərçivəsində işlərin keyfiyyətlə aparıldığını söyləyərək Bankın Azərbaycan Hökuməti ilə əməkdaşlığının yüksək səviyyəsini vurğulayıb.

Tədbir iştirakçıları, həmçinin Nərimanov Rayon Məhkəməsinin yeni binasının timsalında məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən işlərin nəticələri ilə əyani tanış olaraq məhkəmələrdə elektron hökumət prinsiplərinin daha geniş tətbiqindən, xüsusilə elektron məhkəmə sisteminin yaradılmasından məmnunluqlarını bildirib, hər iki tərəf bu sahədə işlərin davam etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

# Avropa İttifaqının ölkəmizdəki səfiri ilə görüş

**Noyabrın 24-də ədliyyə naziri Fikrət Məmmədov Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri Kestutis Yankauskas ilə görüşüb.**



Avropa İttifaqı ilə ölkəmiz arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti İlham Əliyevin elə həmin gün Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak etməsinin əlaqələrimizin inkişafında yeni təkan olduğunu vurğulayıb. Həmçinin hüquqi sahədə əməkdaşlığa toxunularaq ədliyyə sahəsində birgə layihələrin uğurla həyata keçirildiyi bildirilib, qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib.

Nazir dövlət başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib, ölkəmizdə hakimlərin ən şəffaf seçiminin Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirildiyini, bu yaxınlarda Azərbaycanın məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görüldüyünü vurğulayıb.

Ölkəmizdə fəaliyyətindən məmnunluğunu ifadə edən səfir K.Yankauskas Azərbaycan Prezidenti tərəfindən qəbul olunmasından şərəf duyduğunu bildirib, respublikamızın hərtərəfli tərəqqisini, əlverişli biznes mühitinin olduğunu qeyd edib, qarşılıqlı etimada əsaslanan Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib. Qonaq cəza siyasətinin humanistləşdirilməsinə dair ölkə Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən tədbirləri, xüsusilə qanunvericiliyə edilən dəyişiklikləri alqışlayıb, həmçinin məhkəmə-hüquq sahəsindəki islahatlar barədə məlumatlı olduğunu söyləyərək qazanılan nailiyyətləri təqdir edib.

Görüşdə hüquqi sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub, probasiya və mediasiya institutlarının tətbiqi və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

# Məhkəmə islahatları beynəlxalq aləmdə təqdir olunur

**Ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkəmə sistemi daim təkmilləşdirilir, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilir, qanunvericilik və institusional islahatlar aparılır, məhkəmələrin infrastrukturu yüksək statusuna uyğun yaxşılaşdırılır və müasirləşdirilir. Bu sahədə islahatlara nüfuzlu beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilərək, ölkəmizin nailiyyətləri yüksək qiymətləndirilir.**



*Moskva Şəhər Məhkəməsinin sədri Olqa Yeqorovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Ali Məhkəmədə görüş*

Belə ki, Avropa Şurası Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığı və obyektivliyinə görə fərqləndirərək örnək kimi dəyərləndirib və digər dövlətlərə tövsiyə edib. Həmçinin avropalı ekspertlər ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycanın bir çox Avropa ölkələrinə nümunə olduğunu qeyd edirlər.

Bu yaxınlarda isə Avropa Şurası tərəfindən Azərbaycanın təqdim etdiyi "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsinin "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində qalib gələrək ən mütərəqqi layihə kimi mükafata layiq görülməsi dövlətimizin başçısının siyasi iradəsi ilə həyata keçirilən islahatlara verilən yüksək qiymətdir.

Eyni zamanda, nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı ölkəmizdə məhkəmə-hüquq islahatlarına dəstək göstərərək on ildən artıqdır ki, ədliyyə sisteminin müasirləşdirilməsinə dair birgə layihələr uğurla həyata keçirilir. Bu layihələr çərçivəsində paytaxtda və bölgələrdə 12 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 5 məhkəmə üçün belə binaların inşası aparılır. Bir çox məhkəmə bina və komplekslərin açılışlarında dövlətimizin başçısı şəxsən iştirak edib, müvafiq tövsiyə və tapşırıqlarını verib.

Ölkə Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə təsbit edilmiş "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə Dünya Bankı ilə birgə əsaslı işlər görülür, o cümlədən müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq olunur, məhkəmə sisteminin vahid internet portalı zənginləşdirilib, burada elektron "şəxsi kabinet" yaradılıb, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi, proseslərinin audio-video qeydə alınması, elektron sənəd dövriyyəsi təmin olunub və elektron icranın tətbiqinə başlanılıb.

Cari ilin sonunadək ölkə üzrə bütün məhkəmələrin 60 faizini əhatə edəcək bu sistemin tətbiqi ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərməklə insanlara daha əlverişli və rahat şərait yaradacaqdır.

Azərbaycan Hökuməti və Dünya Bankı ilə əməkdaşlığın 25 illiyinin qeyd olunduğu bu günlərdə Dünya Bankı ölkəmizdə ədliyyə sahəsində həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsini ən uğurlu layihə kimi qiymətləndirərək "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün




*Müasir məhkəmə infrastrukturu ilə tanışlıq*

innovativ üsulların yaradılması və tətbiqi" nominasiyasının qalibi elan edib.

Bütün bunlar ölkəmizin məhkəmə sistemindəki nailiyyətlərinə, həmçinin beynəlxalq marağı artırır və Azərbaycanın bu sahədə müsbət təcrübəsindən bəhrələnmək üçün digər dövlətlərdən müraciətlər daxil olur, ölkəmizə səfər etmək arzusu bildirilir. Təkcə bu yaxınlarda Avropa Şurasının müraciəti əsasında nümayəndə heyətimiz Moldovaya səfər edərək məhkəmə infrastrukturunun yaradılması sahəsində müsbət təcrübəmizi oradakı həmkarlarımızla bölüşüb.

Eyni zamanda, Dünya Bankının tövsiyəsi ilə Rusiya Federasiyası Moskva Şəhər Məhkəməsinin sədri xanım Olqa Yeqorovanın başçılıq etdiyi rəhbər vəzifəli şəxslərdən ibarət geniş nümayəndə heyəti bu günlərdə ölkəmizə səfər edib, Ali Məhkəmə, Bakı şəhəri Sabunçu Məhkəmə Kompleksi və Nərimanov Rayon Məhkəməsində olaraq müasir infrastrukturla yaxından tanış olub, ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün yaradılmış hər cür şəraitdən, informasiya texnologiyalarının geniş tətbiqindən heyranlıqlarını ifadə edib, faydalı təcrübə mübadiləsi aparıblar.

Səfər zamanı nümayəndə heyəti ilə Yasamal Rayon Məhkəməsində məhkəmə islahatlarına və yeniliklərə dair geniş təqdimat keçirilib, "Elektron məhkəmə" informasiya sistemi barədə ətraflı məlumat verilib. Qonaqlar məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən tədbirləri böyük maraqla qarşılayıb, bu sahədə Azərbaycanın müsbət təcrübəsini əyani öyrənərək onu örnək kimi qəbul etdiklərini və öz ölkəsində tətbiq edəcəklərini vurğulayıblar.

Sonda bu cür təcrübi səfərlərin təşkilinin əhəmiyyəti qeyd olunaraq əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunub.

# Məhkəmə-Hüquq Şurasının iclasında

**Noyabrın 16-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.**

Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə mühüm qanunvericilik və institusional tədbirlər qeyd edilib, bu sahədə islahatlara nüfuzlu beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilərək, ölkəmizin nailiyyətlərinin yüksək dəyərləndirilməsi vurğulanıb.

İclasda qeyd olunub ki, bu günlərdə ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub.

Azərbaycan bu nüfuzlu müsabiqədə Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak edib və bu layihə Avropa ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək təsis edilmiş 4 mükafatdan birinə layiq bilinib. Digər qalib gələn üç layihə Norveç, İtaliya və Bolqarıstan tərəfindən təqdim edilib.

Azərbaycan lahiyəsinin müsabiqədə iştirak edən 37 layihə içərisində mükafata layiq görülməsi və ölkəmizin adının ən yüksək kürsülərdən şərəflə çəkilərək, bir çox Avropa İttifaqı dövlətlərini qabaqlaması məhkəmə islahatlarının uğurundan xəbər verir. "Ədliyyənin Kristal Tərəzisi" mükafatı Şuranın iclasında təntənəli təqdim edilib.

Eyni zamanda qeyd olunub ki, ölkəmizdə həyata keçirilən mütərəqqi məhkəmə islahatlarına beynəlxalq marağın nəticəsidir ki, bu ərəfədə Avropa Şurasının xahişi ilə mütəxəssislərimiz Moldovaya səfər edərək müsbət təcrübəmizi həmkarlarına aşılayıb, Dünya Bankının tövsiyəsi ilə Moskva Şəhər Məhkəməsi sədrinin rəhbərlik etdiyi mötəbər nümayəndə heyəti ölkəmizə eyni məqsədlə səfər edib.

Tədbirdə həmçinin, əldə edilmiş nailiyyətlərlə yanaşı, məhkəmə fəaliyyətində mövcud problemlərə toxunulub, vətəndaşların haqlı narazılığını doğuran nöqsan və pozuntulara yol vermələri nəzərə alınaraq cari ildə apellya-siya və birinci instansiya məhkəmələrinin 20 hakiminin, o cümlədən 7 məhkəmə sədrinin hakimlik səlahiyyətlərinə xitam ve-rilməsi, 6 məhkəmə sədri və apellyasiya məhkəmələrinin 8 hakiminin aşağı işə keçirilməsi qeyd edilib. Eyni zamanda 2018-ci ildə 100-dək hakimin səlahiyyət müddətinin başa



çatması bildirilib, bununla əlaqədar prinsipial təhlillərin aparılması və onların fəaliyyətinin qiymətləndirilməsinin təşkili ilə bağlı müvafiq tapşırıqlar verilib.

İclasda hakimlər barədə başlanılmış intizam icraatlarına baxılaraq, korrupsiyaya şərait yaradan hallara, habelə icra intizamının və qanunvericiliyin tələblərinin dəfələrlə kobudcasına pozulmasına yol verdiklərinə görə Sabirabad rayon məhkəməsinin hakimi Təyyar Abbaslının hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi qərara alınıb, Sumqayıt Apellyasiya məhkəməsinin hakimləri Vidadi Cəfərov və Hüseyn Nəbiyevə töhmət elan edilib.

# Ədliyyə naziri Saatlı rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq noyabrın 14-də ədliyyə naziri Fikrət Məmmədov Saatlı rayonu Gənclər Mərkəzində Saatlı, Sabirabad və İmişli rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli əd-

liyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri ilə müşavirə keçirib.

İclasda ədliyyə fəaliyyətində şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıqlar verilib.

Eyni zamanda, Şirvan Apellyasiya Məhkəməsinə baş çəkilərək fəaliyyəti və iş şəraitinin yaxşılaşdırılması üzrə görülmüş tədbirlərlə tanış olunub, müşavirə keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından və qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələn vəzifələrə toxunulub. Həmçinin, hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə görülən tədbirlər qeyd olunub, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılmasının vacibliyi bildirilib.





# İctimai Komitənin yeni tərkibdə ilk iclası keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən vətəndaş cəmiyyətinin inkişafına, dövlət idarəetməsində ictimai iştirakçılığın geniş tətbiqinə xüsusi önəm verilir. 2006-cı ildə penitensiar sistemin fəaliyyətində ictimai nəzarətin həyata keçirilməsi və məhkumların islah olunmasında ictimaiyyətin iştirakının təmin olunması məqsədilə ədliyyə naziri yanında yaradılmış tərkibi qeyri-hökumət hüquq müdafiə təşkilatlarının nümayəndələrindən ibarət olan İctimai Komitə 11 ildir ki, uğurla fəaliyyət göstərir.**

Ötən dövrdə Komitə tərəfindən penitensiar müəssisələrə 670-dən artıq başçəkmə həyata keçirilərək məhkumların saxlanma şəraiti və islah prosesində, eləcə də cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi ilə bağlı yaradılmış Komissiyanın işində fəal iştirak edilib, 2000-dən artıq məhkuma müxtəlif istiqamətlər üzrə hüquqi yardım göstərilib.

2013-cü ildə "İctimai iştirakçılıq haqqında" Qanunun qəbul olunması dövlət orqanları və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın dərinləşməsinə təkan verib. İctimai Komitənin səlahiyyətləri həmin Qanuna uyğun genişləndirilib, o cümlədən səlahiyyət müddəti artırılıb.

Bu gün müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunan İctimai Komitə nazirliyin daimi monitorinq qrupu ilə birgə ictimai rəyin öyrənilməsində, kollegiya iclaslarında, konfrans və seminarlarda, "açıq qapı" günlərində, habelə qulluğa qəbulla bağlı müsabiqələrdə və digər tədbirlərdə yaxından iştirak edir.

Müvafiq Qaydalara uyğun olaraq fəaliyyət göstərən Komitənin növbəti iki illik səlahiyyət müddətinin başa çatması ilə əlaqədar tərkibi millət vəkillərindən, nüfuzlu ictimaiyyət nümayəndələrindən, alimlərdən, din xadimlərindən və aidiyyəti orqanların təmsilçilərindən ibarət olan Seçki Komissiyası ilə hesabat görüşü keçirilib, qurumun





fəaliyyəti təhlil edilərək qiymətləndirilib və Komitənin tərkibi yenidən formalaşdırılıb.

Bu günlərdə Komitənin yeni tərkibdə ilk iclası keçirilərək, ötən müddətdə gördüyü işlər və qarşıda duran vəzifələr müzakirə olunub, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Qrupunun rəhbəri Səadət Bənənyarlı qurumun koordinatoru seçilib.

Tədbirə qatılan ədliyyə naziri Fikrət Məmmədov ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar və əldə olunan nailiyyətlər barədə məlumat verib, dövlət başçısının cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatların yeni mərhələyə keçdiyini və bu mühüm sənədin icrası üzrə görülən işləri qeyd edib.

Nazir ədliyyə fəaliyyətində ictimai iştirakçılıq baxımından İctimai Komitənin mühüm rolunu vurğulayaraq, əməkdaşlıq üçün geniş imkanların olduğunu diqqətə çatdırıb, müvafiq tövsiyələr verib.

Komitə üzvləri Ədliyyə Nazirliyində aşkarlığa və şəffaflığa daim xüsusi önəm verildiyini qeyd edərək nazirliklə əməkdaşlıq modelindən və səmərəli qarşılıqlı fəaliyyətdən məmnunluqlarını ifadə edib, məhkumları şərti azad etmə ilə bağlı yaradılmış Komissiyanın fəaliyyətini və onun işində ictimaiyyətin iştirakını müsbət qiymətləndirib, həyata keçirilən islahatlara töhfə verməyə hazır olduqlarını bildiriblər.

İclasda İctimai Komitənin işinin daha səmərəli təşkili, ədliyyənin yeni fəaliyyət istiqamətləri ilə tanış olunması, məhkumların sosial adaptasiyası və əməkdaşlığın digər formaları barədə fikir mübadiləsi aparılıb.

Sonda nazir qurumun üzvlərinə cəzaçəkmə müəssisələrinə maneəsiz buraxılması üçün xüsusi vəsiqələr təqdim edib və uğurlu fəaliyyət arzulayıb.

## Ədliyyə Nazirliyinin Apellyasiya Şurasının növbəti iclası keçirilib

**Vətəndaş Ramiz Əskərovun sahibkarlıq fəaliyyəti ilə bağlı məhkəmə qərarının icra olunmamasına dair təkrar şikayətinə onun iştirakı ilə Ədliyyə Nazirliyinin Apellyasiya Şurasının 6 noyabr 2017-ci il tarixli iclasında baxılıb.**

Qeyri-hökumət təşkilatları nümayəndələrinin də dəvət olunduğu iclasda Apellyasiya Şurası tərəfindən R.Əskərovun müraciəti üzrə bütün dəlillər ətraflı müzakirə edilib və "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.1-ci bəndi rəhbər tutularaq şikayətin təmin edilməsi barədə qərar qəbul olunub.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsi tərəfindən müvafiq tikilinin layihəsinin təsdiq edilməsi ilə əlaqədar məhkəmə qətnaməsinin icrasının təmin olunmasına dair nazirliyin İcra baş idarəsinə göstəriş verilib, həmçinin fəaliyyətində nöqsanlara yol vermiş icra xidmətinin əməkdaşlarının intizam məsuliyyətinə cəlb edilməsi barədə məsələ qaldırılıb.

# Bir sıra rayonlarda vakant olan notarius vəzifələri üzrə müsabiqədə iştirak edən namizədlərlə test imtahanı keçirilib





**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, Cəlilabad, Xızı, İmişli, Masallı, Quba, Samux, Saatlı, Şəmkir və Yardımlı rayonlarında vakant olan notarius vəzifələri üzrə elan olunmuş müsabiqədə iştirakla bağlı sənədlərin qəbulu başa çatdırılaraq, "Notariat haqqında" Qanunun tələblərinə cavab verən namizədlərlə noyabr ayının 25-də test imtahanı keçirilib.**

Dövlət İmtahan Mərkəzi ilə birlikdə aşkarlıq şəraitində vakant olan 9 notarius vəzifəsi üzrə keçirilmiş imtahanı vətəndaş cəmiyyətinin nümayəndələri izləyib, həmçinin tədbirin gedişi internet vasitəsilə "on-line" rejimində birbaşa yayımlanıb.

"Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

Yekun nəticələrə görə imtahanda 56 nəfər müvəffəqiyyət qazanaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb. Namizədlər suallara verdikləri cavabların nəticələri ilə test imtahanının sonunda istifadələrində olan monitor vasitəsilə tanış olub və bu barədə bildirişi yerindəcə əldə ediblər.

Növbəti müsahibə mərhələsinin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

# Ədliyyə Nazirliyinin nümayəndə heyəti III Beynəlxalq Penitensiar Forumda iştirak edib

**Noyabrın 21-23-də Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin təşkilatçılığı ilə Ryazan şəhərində "Cinayət, cəza, islah" adlı III Beynəlxalq Penitensiar Forum keçirilib.**

10 ölkədən 700-dən çox nümayəndənin, o cümlədən hüquq mühafizə orqanlarının, penitensiar sistemlərin, təhsil müəssisələrinin və ictimai-siyasi təşkilatların rəhbər şəxslərinin, alim və professorların qatıldığı tədbirdə Azərbaycanın Ədliyyə Nazirliyinin nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə Nazirliyin Penitensiar Xidmətinin rəis müavini Hüseyn Əlixanov və İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov, İcra baş idarəsinin rəis müavini (probasiya üzrə) vəzifəsini icra edən Musa Hümbətov və Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov daxil edilib.

Forumda penitensiar sahədə beynəlxalq əməkdaşlığın və dialoqun genişləndirilməsi, penitensiar və cinayət-cəza sistemlərinin inkişaf perspektivləri müzakirə olunub.

Açılış mərasimində Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Direktoru

Gennadi Kornienko, Ryazan əyalətinin qubernatoru Nikolay Lyubimov, Rusiya Federasiyası ədliyyə nazirinin müavini Vadim Fedorov giriş nitqi ilə çıxış ediblər, həmçinin Azərbaycan ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun video-müraciəti nümayiş etdirilib.




Tədbirdə müxtəlif ölkələrin nümayəndələrinin cəza-icra siyasətinin hazırkı vəziyyəti və təkmilləşdirilməsi, azadlıqdan məhrumetmə növündə cəzaların icrası və məhkumlarla davranış zamanı beynəlxalq standartların tətbiqi, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrası və cəzadan azad olunanların sosial adaptasiyasının təminatı, penitensiar sistemdə sosial və psixoloji iş, məhkumların təhsil və tərbiyəsi, ictimaiyyətin cəza-icra sisteminin fəaliyyətinə cəlb edilməsi, cəzaçəkmə müəssisələri üçün personalın hazırlanması, cinayət cəzalarının icrası sahəsində beynəlxalq əməkdaşlıq kimi mövzular üzrə çıxışları dinlənilib.

Nümayəndə heyətimizin üzvləri H.Əlixanov "Azərbaycan Respublikasında cəza-icra siyasətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi", M.Hümbətov "Azərbaycan Respublikasında islah işləri cəzası (tarixi, tətbiqi və problemləri)" mövzularında çıxışlar ediblər.

Forum çərçivəsində həmçinin penitensiar sistemin müxtəlif istiqamətləri üzrə - cəza-icra sisteminin vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əməkdaşlığı, müasir dövrdə penitensiar cinayətlərin tədqiqi və operativ əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, penitensiar müəssisələrin informasiya texnologiyaları ilə təminatı, tibb xidmətinin, peşəkar kadr təminatının təkmilləşdirilməsi mövzularında dəyirmi masa keçirilib, Azərbaycan tərəfi müzakirələrdə fəal iştirak edib.

Səfər zamanı Federal Xidmətin Akademiyasının rəisi Aleksandr Krımovla görüş keçirilib. Görüşdə qurumun ölkəmizin Penitensiar xidməti və Ədliyyə Akademiyası arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Həmçinin Ryazanda Akademiyada təhsil alan azərbaycanlı müdavimlərin təhsil və məişət şəraiti ilə maraqlanılıb, onlara zəruri tövsiyələr verilib.

# Ədliyyə Akademiyasında icbari təlim kursuna başlanılıb

**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı 500 nəfərdən çox namizədlə keçirilmiş növbəti müsabiqəyə yekun vuraraq, uğur qazanmış 95 namizəd peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunub.**

Akademiyada 3 ay davam edəcək kursun proqramı müasir tədris metodu əsasında hazırlanıb. Kurs çərçivəsində ədliyyə sahəsində dövlət siyasətinin həyata keçirilməsi və tənzimlənməsi üzrə Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, insan hüquqlarının müdafiəsinin beynəlxalq və milli mexanizmləri, inzibati icraat, hüquqi etika və psixologiya, korrupsiya ilə mübarizə, qanunvericiliyin yenilikləri və digər aktual məsələlərə dair mövzular tədris olunacaq. Həmçinin, namizədlərin müasir texnologiyalardan istifadə bacarıqlarının yüksəldilməsi ilə bağlı təlimlər, mənəvi-estetik dünyagörüşlərinin artırılması məqsədilə mədəni proqramlar təşkil ediləcək. Bununla yanaşı, namizədlərin ədliyyə orqanlarında təcrübə keçmələri nəzərdə tutulur.

Noyabrın 27-də Ədliyyə Akademiyasında həmin kursun açılışı olub. Nazirliyin Kadrlar idarəsinin rəisi Rauf Məhərrəmov və Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov tədbirdə müsabiqədən uğurla keçən namizədlərin peşə fəaliyyətinə



buraxılmaları üçün keçirilən icbari təlimin əhəmiyyətindən danışıb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, zəruri tövsiyələr veriblər.

Kursun ilk günündə hüquq islahatları mövzusunda çıxış edən nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Faiq Qurbanov ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hüquqi sahədə aparılan islahatlar, o cümlədən ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən tədbirlər və əldə olunan nailiyyətlər barədə məlumat verib, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə bu sahədə islahatların yeni mərhələyə keçdiyini, bununla əlaqədar görülən işləri və qarşıda duran mühüm tədbirləri qeyd edib.

Sonra təlimin proqramı üzrə digər mövzularda mühazirələr dinlənilib.

## Ədliyyə işçilərinin ixtisasının artırılması diqqət mərkəzindədir

**Ədliyyə Akademiyası tərəfindən ədliyyə işçilərinin ixtisaslarının artırılması məqsədilə mütəmadi kurslar təşkil olunur, insan hüquqlarının qorunması, korrupsiya ilə mübarizə, etik davranış qaydaları, ədliyyə orqanlarında açıq hökumət prinsiplərinin tətbiqi, qanunvericilikdəki yeniliklər və digər aktual mövzuların tədrisinə xüsusi diqqət yetirilir.**

Cari ilin noyabrında əsasən icra məmurları, tibb xidməti və Məhkəmə ekspertizası mərkəzinin işçilərini və nazirliyin digər struktur qurumlarını əhatə edən ümumilikdə 150-dən çox dinləyicinin iştirakı ilə ixtisasartırma kursları keçirilib.

Akademiya tərəfindən təşkil olunan təlimlər zamanı ədliyyə orqanları işçilərinin etik davranış qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət, korrupsiyaya qarşı mübarizə, antikorrupsiya mədəniyyəti və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması, həmçinin elektron imza və onun tətbiqi məsələləri, kompüterlərdən istifadə bacarıqlarının inkişaf etdirilməsi, Ədliyyə Nazirliyində tətbiq olunan informasiya sistemləri və s. mövzular tədris olunub, maraqlı diskussiya keçirilərək fikir mübadiləsi aparılıb.

Sonda kursların təşkilinə, tədris olunan mövzulara dair və təlimçilərin metodikasını öyrənmək məqsədilə sorğu aparılıb, dinləyicilər belə tədbirlərin mütəmadi keçirilməsinin onlar üçün əhəmiyyətli olduğunu bildiriblər.

## Naxçıvan Dövlət Universitetinin tələbələri muxtar respublikanın Ədliyyə Nazirliyində olublar

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq, eləcə də dövlət və bələdiyyə idarəetməsi ixtisasları muxtar respublikanın Ədliyyə Nazirliyinin hamiliyinə verilib.

Bu ixtisaslar üzrə I kursda təhsil alan tələbələr nazirliyin aparatında və tabe qurumlarında ikigün-

lük təcrübə keçiblər.

İlk olaraq tələbələr muxtar respublikanın Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində dövlətimizin cəza-icra siyasətinin həyata keçirilməsi, məhkumların hüquq və vəzifələrinin təmin edilməsi sahəsində fəaliyyət barədə ətraflı məlumat alıblar.

Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Məhkəmə Ekspertizası Mərkəzində də olub, mərkəzdə keçirilən ekspertiza növləri, müxtəlif ekspertizaların aparıldığı laboratoriyalarda yaradılan şəraitlə, bu laboratoriyaların iş prinsipləri ilə tanış olublar. Tələbələr nazirliyin aparatında bir iş günü ərzində görülən işlər barədə də məlumat əldə ediblər.

İkigünlük təcrübə müddətində tələbələr nazirliyin Bələdiyyələrlə iş mərkəzinə gələrək, burada iş prosesini izləyiblər.



Təcrübə müddətində hər iki ixtisas üzrə təhsil alan tələbələr nazirliyin bütün şöbə və bölmələrində olaraq fəaliyyətlə tanış olublar.

Sonda Ədliyyə Nazirliyində tələbələrlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Regional ədliyyə idarələri tərəfindən hüquqi maarifləndirmə tədbirləri davam etdirilir

**Ədliyyə Nazirliyinin regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsinə daim xüsusi diqqət yetirilərək bu məqsədlə müxtəlif bölgələrdə mütəmadi seminar-müşavirələr təşkil edilir, vətəndaşlarla "açıq qapı günləri keçirilir.**




Cari ilin noyabrında Gəncə, Şəmkir, Şəki, Lənkəran, Xaçmaz və Şirvan regional ədliyyə idarələri tərəfindən öz ərazi yurisdiksiyalarına daxil olan şəhər və rayonlarda bələdiyyə nümayəndələrinin iştirakı ilə keçirilmiş maarifləndirmə tədbirlərində ölkədə bələdiyyələrin inkişafı üzrə görülən işlərdən bəhs olunaraq qeyd edilib ki, yerli özünüidarənin səmərəli təşkili üçün bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına daim xüsusi diqqət yetirilir, Ədliyyə Nazirliyi tərəfindən onlara mütəmadi metodoloji yardım göstərilir, bələdiyyə üzvlərinin və qulluqçularının peşəkarlığının artırılması məqsədilə silsilə tədris və maarifləndirmə tədbirləri keçirilir.

Eyni zamanda yerli əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayan bələdiyyələrin qarşısında duran vəzifələr müzakirə olunub, bələdiyyə qulluğuna qəbulun xüsusiyyətləri, bələdiyyə qulluqçularının etik davranış qaydaları, insan hüquqlarının qorunmasında bələdiyyələrin rolu, inzibati nəzarət, bələdiyyə torpaqlarının idarə edilməsinin əsasları, qanunvericilikdəki yeniliklər və digər aktual mövzularda məruzələr edilərək bu sahədə bələdiyyələrin hüquq və vəzifələri geniş izah olunub, faydalı fikir mübadiləsi aparılıb.

***

Şəki regional ədliyyə idarəsi tərəfindən həmçinin Zaqatala rayonunda vətəndaşların hüquqi maarifləndirilməsi məqsədilə "açıq qapı" günü keçirilib, onlara bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər, bələdiyyə üzvləri və qulluqçularının etik davranış qaydaları barədə ətraflı məlumat verilib, vətəndaşları maraqlandıran suallara aydınlıq gətirilib.

## ”Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyətinin təşkil edilməsi məqsədi ilə **qərara alıram:**

1. "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı ilə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 8, maddə 671; 2007, N 12, maddə 1223; 2009, N 12, maddə 983; 2010, N 2, maddə 80, N 7, maddə 622; 2012, N 12, maddə 1273; 2016, N 11, maddə 1826; 2017, N 6, maddə 1072) təsdiq edilmiş "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu"nun 2-ci hissəsinin yeddinci - on dördüncü abzasları müvafiq olaraq səkkizinci - on beşinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"Probasiya xidməti (baş idarə səlahiyyətli)".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin kadr korpusunun formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin işçilərinin ümumi say həddini 65 ştat vahidi artırsın;

2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin təşkil edilməsi ilə bağlı müvafiq tədbirlər görsün;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 noyabr 2017-ci il*

### ”Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununun tətbiqi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısını və tətbiqi qaydalarını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 48.0.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Məcəllənin 93-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

2.3. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi ixtisaslaşmış tibb müəssisəsinin təşkil edilməsi üçün zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

4.1. azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasının təşkil edilməsi və həmin cəzanın icrası ilə əlaqədar elektron nəzarət vasitələrinin tətbiqinin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

4.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 noyabr 2017-ci il*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, II kitab, maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12, I kitab, maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330; N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271,1293) aşağıdakı dəyişikliklər edilsin:

1. 234.3-cü maddənin dispozisiyasında "hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya

satma" sözləri "satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma" sözləri ilə əvəz edilsin.

2. "Qeyd" hissəsinin ikinci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq və külli miqdarı, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 noyabr 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı məzmunda 206-1-ci maddə əlavə edilsin:

"Maddə 206-1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorların hazırlanması, əldə edilməsi, saxlanılması, göndərilməsi və ya daşınması

Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorların az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, göndərilməsinə və ya daşınmasına görə -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

Qeyd:

1. Bu maddədə "az miqdarda" dedikdə, müvafiq qanunla müəyyən edilmiş prekursorların xeyli miqdarından aşağı miqdar başa düşülür.

2. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə hazırladığı, əldə etdiyi, saxladığı, göndərdiyi və ya daşıdığı prekursorları könüllü surətdə təhvil verən şəxs bu maddədə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 noyabr 2017-ci il*

### ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 8, maddə 695; 2007, N 5, maddə 437, N 10, maddələr 932, 938; 2008, N 7, maddə 602; 2009, N 1, maddə 6; 2014, N 11, maddə 1374; 2015, N11, maddə 1273; 2016, N 6, maddə 992; 2017, N 1, maddə 8) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.6-cı maddəyə "və ya" sözlərindən sonra "onların (onların hissələrinin)" sözləri əlavə edilsin.

2. 8.2-ci maddədə "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

3. 8.2.3-cü maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.4-cü maddə əlavə edilsin:

"8.2.4. qanunsuz dövriyyədən aşkar olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinə dair məlumat bölməsi.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 noyabr 2017-ci il*

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, mad-

dələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 580-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10.6-cı maddədə "nümayəndələri" sözündən sonra "və vəkilləri" sözləri əlavə edilsin;

1.2. 19.2-ci maddə üzrə:

1.2.1. 19.2.1-ci maddədə "təyin edilmişsə" sözləri ", yaxud vəkili olmuşsa" sözləri ilə əvəz edilsin;

1.2.2. 19.2.2-ci maddədə "nümayəndəsinin" sözündən sonra "və ya vəkilinin" sözləri əlavə edilsin;

1.3. 20.2.1-ci maddədə "nümayəndələrindən" sözündən sonra ", yaxud vəkillərindən" sözləri əlavə edilsin;

1.4. 69-cu maddə üzrə:

1.4.1. aşağıdakı məzmunda 69.1-1-ci maddə əlavə edilsin:

"69.1-1. Fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkil (bu Məcəllənin 71-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər. Nümayəndənin məhkəmədə iş aparmaq səlahiyyəti lazımi qaydada rəsmiləşdirilməlidir.";

1.4.2. 69.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"69.2. Hüquqi şəxsi məhkəmədə qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri və ya vəkillər təmsil edir.";

1.5. 70-ci maddə ləğv edilsin;

1.6. 72.5-ci maddədə "başqa şəxsə" sözləri "bu Məcəllənin 69.1-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.7. 150.0.3-cü maddədə "nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamə və ya digər" sözləri "iddia ərizəsinin səlahiyyətli şəxs tərəfindən imzalanmasını təsdiq edən" sözləri ilə əvəz edilsin;

1.8. 179.2-ci maddədə "və nümayəndələrin" sözləri ", nümayəndələrin və vəkillərin" sözləri ilə əvəz edilsin;

1.9. 185-ci maddə üzrə:

1.9.1. adında "və nümayəndələrin" sözləri ", nümayəndələrinin və vəkillərinin" sözləri ilə əvəz edilsin;

1.9.2. 185.6-cı maddənin birinci və ikinci cümlələrində "nümayəndəsinin" sözündən sonra ", yaxud vəkilinin" sözləri əlavə edilsin;

1.10. 220.3-cü maddənin birinci cümləsində "və nümayəndələr" sözləri ", nümayəndələr və vəkillər" sözləri ilə əvəz edilsin;

1.11. 271.2-ci maddə üzrə:

1.11.1. 271.2.5-ci maddədə "nümayəndələrin" sözündən sonra ", vəkillərin" sözü əlavə edilsin;

1.11.2. 271.2.9-cu maddədə "və nümayəndələrin" sözləri ", nümayəndələrin və vəkillərin" sözləri ilə əvəz edilsin;

1.12. 361.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"361.2. Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, yaxud vəkili tərəfindən imzalanır. Qanuni nümayəndə və ya nümayəndə, yaxud vəkil tərəfindən verilən apellyasiya şikayətinə, əgər işdə yoxdursa müvafiq olaraq nümayəndənin, yaxud vəkilin səlahiyyətini təsdiq edən etibarnamə, vəkilin orderi və ya digər sənəd əlavə edilməlidir.";

1.13. 393-cü maddənin mətnində "qəbul edildiyi" sözləri "qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi" sözləri ilə əvəz edilsin;

1.14. 400-cü maddənin mətni aşağıdakı redaksiya-

da verilsin:

"Apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulmuş qərardadlarından kassasiya şikayəti verilməmişdirsə, həmin qərardadlar işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün sonra, qanunla şikayət verilməsi nəzərdə tutulmayan qərardadları isə çıxarıldığı andan qanuni qüvvəyə minir.";

1.15. 402-ci maddədə "qətnamə və" sözləri "qətnamələrindən, işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi, habelə iş üzrə icraata xitam verilməsi barədə" sözləri ilə əvəz edilsin;

1.16. 403.1-ci maddədə "maraqlı şəxslər" sözlərindən sonra "tələbləri təmin olunmadığı hallarda" sözləri əlavə edilsin;

1.17. Aşağıdakı məzmunda 404-1-ci maddə əlavə edilsin:

"404-1. Kassasiya şikayətinin mümkünlüyü

Apellyasiya instansiyası məhkəməsində baxılan mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, iqtisadi mübahisələrə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kassasiya şikayəti verilə bilməz.";

1.18. 408.1.1-ci maddədən "onu imzalamağa" sözləri çıxarılsın;

1.19. 415.2-ci maddədə "nümayəndələri" sözündən sonra "və vəkilləri" sözləri əlavə edilsin;

1.20. 415-1.4-cü maddədən birinci cümlə çıxarılsın və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Sonra məhkəmə yerində müşavirə apararaq və ya müşavirə otağında səs çoxluğu ilə qərar qəbul edir.";

1.21. 417.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 417.1.7-ci maddə əlavə edilsin:

"417.1.7. kassasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması, yaxud da icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə apellyasiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytara bilər.";

1.22. 418-ci maddə üzrə:

1.22.1. 418.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 418.4.9-cu maddə əlavə edilsin:

"418.4.9. işə məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa.";

1.22.2. 418.5.-ci maddədə "418.4.6-cı" sözləri "418.4.6-418.4.9-cu" sözləri ilə əvəz edilsin;

1.23. 424.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.5-ci maddə əlavə edilsin:

"424.2.5. işə məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa.";

1.24. 429.0.3-cü maddədə "işi" sözündən sonra "kassasiya və ya" sözləri əlavə edilsin;

1.25. 431-4-cü maddə üzrə:

1.25.1. 431-4.2.1-ci və 431-4.3.1-ci maddələrdə "işin" sözündən sonra "kassasiya və ya" sözləri əlavə edilsin;

1.25.2. 431-4.3.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 431-4.3.5-ci və 431-4.3.6-cı maddələr əlavə edilsin:

"431-4.3.5. iş üzrə qəbul edilmiş məhkəmə aktlarının ləğv edilməsi və işin icraatına xitam verilməsi barədə;

431-4.3.6. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarındakı müddəaların nəzərə alınması və (və ya) icrası barədə.".

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.4-1.6-cı maddələri məhkəmələrdə baxılmaqda olan işlər üzrə nümayəndə qismində iştirak edən şəxslərə həmin işlər müvafiq instansiya məhkəmələrində mahiyyəti üzrə həll edilənədək şamil olunmur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 26.2-ci maddə üzrə:

1.1.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Dövlətin, bələdiyyələrin və ya hüquqi şəxslərin adından prosessual hərəkətləri onların qanunlarla, digər hüquqi aktlarla və ya dövlət (bələdiyyə) orqanlarının və ya hüquqi şəxsin nizamnaməsi (əsasnaməsi) ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri və ya dövlət və bələdiyyə orqanları, yaxud hüquqi şəxslər tərəfindən xüsusi səlahiyyət verilmiş, əsas iş yeri həmin dövlət və bələdiyyə orqanları və ya hüquqi şəxslər olan işçiləri həyata keçirirlər.";

1.1.2. ikinci cümlədə "nümayəndə" sözü "işçisi" sözü ilə əvəz edilsin;

1.2. 31.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"31.1. İnzibati məhkəmə icraatında proses iştirakçılarının vəkillə təmsil olunmaq hüququ vardır. Dövlət və bələdiyyə orqanları, yaxud hüquqi şəxslər, həmçinin bu Məcəllənin 26.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətli nümayəndə vasitəsilə, fiziki şəxslər isə yaxın qohumlar vasitəsilə təmsil oluna bilərlər.";

1.3. 61.2-ci maddənin ikinci cümləsində "səlahiyyətli vəkilə və ya" sözləri "prosessual" sözü ilə əvəz edilsin;

1.4. 69.2-ci maddədə "səlahiyyətli" sözü "prosessual" sözü ilə əvəz edilsin;

1.5. 86.1.1-ci maddədə "apellyasiya şikayəti verən şəxs və onun səlahiyyətli nümayəndəsi" sözləri "səlahiyyətli şəxs" sözləri ilə əvəz edilsin;

1.6. 93-cü maddənin adından "və onların nümayəndələri" sözləri çıxarılsın.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.1-1.2-ci maddələri məhkəmələrdə baxılmaqda olan işlər üzrə nümayəndə qismində iştirak edən şəxslərə həmin işlər müvafiq instansiya məhkəmələrində mahiyyəti üzrə həll edilənədək şamil olunmur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

## "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 19; 2001, N 12, maddə 736; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 8, maddə 599, N 10, maddə 787; 2005, N 8, maddə 686; 2006, N 12, maddə 1005; 2007, N 4, maddə 322; 2009, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 5, maddə 375; 2011, N 2, maddə 71, N 6, maddə 478; 2013, N 11, maddə 1272) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin II hissəsində "Xətalar" sözündən sonra ", İnzibati Prosessual" sözləri əlavə edilsin.

2. 4-cü maddənin II hissəsində "üzrə kassasiya (əlavə kassasiya) şikayəti və ya məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə vermiş" sözləri "və inzibati mübahisələrə dair işlər üzrə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 357-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 9, maddə 1559, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı dəyişikliklər edilsin:

1. 61.1.9-cu, 62.2.9-cu və 65.4.7-ci maddələrdə "yol hərəkəti qaydaları əleyhinə törədilən inzibati xəta" sözlərindən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta" sözləri əlavə edilsin.

2. 81.2-ci maddədə "qaydaları" sözündən sonra "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları" sözləri əlavə edilsin.

3. 96.1.6-cı maddədə, 150.11-ci maddənin birinci və yeddinci cümlələrində və 529.3-cü maddədə "xətaların" sözündən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın" sözləri əlavə edilsin.

4. 125.7-ci, 152.5-ci və 339.5-ci maddələrdə "əleyhinə olan inzibati xəta" sözlərindən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta" sözləri əlavə edilsin.

5. 529.1-ci və 529.2-ci maddələrdə "xətaların" sözlərindən sonra "və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*

## "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 3, maddə 125; 2005, N 4, maddə 285, N 10, maddə 876; 2007, N 10, maddə 934, N 12, maddə 1219; 2013, N 6, maddə 595; 2016, N 11, maddə 1762) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambula üzrə:

1.1. birinci abzasa "özünüidarəetmə orqanlarının," sözlərindən sonra "publik hüquqi şəxslərin (bundan sonra - qurum)," sözləri əlavə edilsin;

1.2. ikinci abzasa "orqanlarına" sözündən sonra "və yerli özünüidarəetmə orqanlarına, qurumlara" sözləri, "özünüidarəetmə orqanlarında" sözlərindən sonra ", qurumlarda" sözü əlavə edilsin.

2. 1-ci, 9.3.2-ci və 9.3.5-ci maddələrə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin.

3. Aşağıdakı məzmunda 2.1.7-1-ci maddə əlavə edilsin:

"2.1.7-1. qurumların rəhbərləri və işçiləri, o cümlədən qurumlarda xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;".

4. 4-cü maddənin adına "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə edilsin.

5. 4.1-ci maddənin birinci cümləsinə "orqanları" sözündən sonra ", yerli özünüidarəetmə orqanları, qurumlar" sözləri əlavə edilsin.

6. 8.2-ci maddənin ikinci cümləsində "və ya yerli özünüidarəetmə orqanına" sözləri ", yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri ilə əvəz edilsin.

7. 8.5-ci maddənin ikinci cümləsinə "orqanına" sözündən sonra ", yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri əlavə edilsin.

8. 9.3.4-cü maddədə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin və "orqanlarının" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri əlavə edilsin.

9. 9.3.7-ci maddəyə "orqanların" sözündən sonra "(qurumların)" sözü əlavə edilsin.

10. 9.3.10-cu maddədə "orqanları və ya yerli özünüidarəetmə orqanlarının" sözləri "orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri ilə əvəz edilsin.

11. 9.3.11-ci maddədə "və ya yerli özünüidarəetmə orqanlarının" sözləri ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri ilə əvəz edilsin.

12. 12.1-ci maddənin ikinci cümləsinə "orqanlarının" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri əlavə edilsin.

13. 13-cü maddədə "orqanları" sözündən sonra ", yerli özünüidarəetmə orqanları və ya qurumlar" sözləri əlavə edilsin, "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 oktyabr 2017-ci il*